"Şəffaf büdcə" kitabxanası

# BƏLƏDİYYƏDƏ BÜDCƏ SƏNƏDLƏŞMƏSİ

*(metodiki tövsiyə)*

## The budget documentation in municipality

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

3919

"Ekspert" jurnalı

Bakı - 2005

67.402
Y 55

**"Ekspert" iqtisad jurnalı**
Bakı şəhəri,
S.Rüstəmov küçəsi, ev 3, mən.3/6
Tel: (99412) 497 11 61
Faks: (99412) 498 44 31
E-mail: ekspert@azeronline.com
Website: www.ekspert.az

**İşçi qrupu:**

*Azər MEHTİYEV*
*Rövşən AĞAYEV*
*Samir ƏLİYEV*

Kitabda bələdiyyədə büdcə quruculuğu və büdcə prosesi haqqında Model Əsasnamə və büdcə planlaşdırılması üçün zəruri olan sənədlərin nümunələri toplanıb. Bu sənəd nümunələri konkret bələdiyyələrdə büdcə prosesinin təşkili nəticəsi kimi ərsəyə gəlib.

Metodiki tövsiyə bələdiyyə rəhbəri və üzvləri, bələdiyyə qulluqçuları, yerli özünüidarə məsələləri üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları və ekspertlər, bir sözlə bu mövzuya maraq göstərənlər üçün nəzərdə tutulub. Tövsiyə habelə hökumətin yerli özünüidarə qurumlarının fəaliyyətini tənzimləyən orqanları üçün faydalı ola bilər.

Oxfam *Metodiki tövsiyə "Ekspert" jurnalının* ***Oxfam GB*** *beynəlxalq hümanitar təşkilatının maliyyə dəstəyi ilə həyata keçirdiyi* ***"Şəffaf büdcə"*** *layihəsi çərçivəsində hazırlanıb və çap olunub.*
*Kitabın məzmununa və buradakı məlumatlara görə Oxfam GB heç bir məsuliyyət daşımır.*

**Kitab pulsuz paylanır**

ISBN 9952-8031-8-4 © "Ekspert" iqtisad jurnalı

# Bələdiyyədə büdcə prosesinin təşkili

Azərbaycanda yerli özünüidarə institutu təzə-təzə formalaşmaqdadır. Buna görə bələdiyyə idarəçiliyinin bütün şaxələrində təcrübə çatışmazlığı hiss olunur. Yerli büdcə prosesinin təşkili məsələsində belə təcrübəsizlik özünü qabarıq göstərir. Bələdiyyələrdə büdcə-vergi sahəsində səriştəsi olan kadrların kəskin qıtlığı mövcuddur. Bu, rayon və kənd inzibati-ərazi vahidlərindəki yerli özünüidarəetmə qurumları üçün xüsusilə ağrılı problemdir. Həmin bələdiyyələrin maliyyə imkanları çox məhdud olduğundan onlar səriştəli kadrları işə cəlb edə bilmir, özlərinin vergi xidmətini qura bilmirlər. Azərbaycanda bələdiyyələrin 90 faizə qədəri məhz kənd və qəsəbə səviyyəli qurumlar olduğunu nəzərə alsaq, o zaman məsələnin nə dərəcədə ciddi olduğunu və onun həllinin zəruriliyinin nə qədər aktuallıq kəsb etdiyini xüsusi izah etməyə ehtiyac qalmır.

Araşdırmalar göstərir ki, ölkəmizdə bələdiyyə rəhbərlərinin əksəriyyəti bu quruma kommersiya təşkilatı kimi yanaşırlar. Buna görə də həmin bələdiyyələrdə büdcə prosesinin təşkili işi ənənəvi mühasibatlığın qurulmasından uzağa getmir. Reallıqda isə hər bir bələdiyyə öz-özlüyündə müstəqil idarəetmə institutu olaraq "kiçik

dövlət" modelidir, onun büdcə işi də dövlət büdcəsinin təşkili prinsiplərinə uyğun qurulmalıdır.

Təsadüfi deyil ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununda ölkədə vahid büdcə sisteminin olması göstərilib, yerli büdcələr isə həmin sistemin bir həlqəsi kimi təsbit olunub. Büdcə sisteminin vahidliyi bütün səviyyələrdən olan büdcələrin (yəni həm dövlət, həm də bələdiyyə büdcələrinin) hazırlanması, təsdiqi, icrası və icrası ilə bağlı hesabatlılığın eyni prinsiplər əsasında reqlamentləşdirilməsini nəzərdə tutur. Qanunda dövlət büdcəsi üzrə büdcə prosesinin bütün mərhələlər (büdcənin tərtibi, müzakirəsi və təsdiqi, icrası və icra barədə hesabatın hazırlanması) üzrə konkret müddətlər və muvafiq hakimiyyət orqanlarının vəzifə və səlahiyyətləri göstərilməklə reqlamentləşdirilməsi əsasən təmin olunub. Lakin bələdiyyə büdcələrinə münasibətdə belə bir geniş reqlamentləşdirmə qanunvericilikdə 2005-ci ilədək yox idi. Qanunvericilikdə yerli büdcə prosesi ilə bağlı yalnız aşağıdakı normalar müəyyən edilmişdi:

- *dövlət büdcəsindən dotasiya almaq nəzərdə tutulduqda yerli büdcənin layihəsi qanunvericilikdə müəyyən edilən sənədlər və məlumatla birlikdə may ayının 1-dək müvafiq icra hakimiyyəti orqanına təqdim olunur;*
- *növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyənin qərarı ilə cari ilin dekabr ayının 25-dən gec olmayaraq təsdiq edilir.*

Yerli büdcə prosesi ilə əlaqədar yerdə qalan bütün məsələləri büdcə prosesinin ölkə qanunvericiliyində müəyyən olunmuş ümumi prinsiplərinə müvafiq qaydada bələdiyyələr müstəqil işləyib hazırlamalıdılar. Bu məsələlər ya bələdiyyənin nizamnaməsində əks olunmalı, ya da yerli büdcə prosesi haqqında əsasnamə işlənilməlidir.



Lakin bir sıra bələdiyyələrin fəaliyyətinin öyrənilməsi göstərdi ki, bələdiyyələrin əksəriyyətində, xüsusilə rayon və kənd bələdiyyələrində, büdcə planlaşdırılması işi çox bəsit şəkildə aparılır. Belə ki, əksər hallarda bələdiyyənin büdcə fəaliyyəti vergi ödəyicilərinin siyahılarını və toplanmalı olan vergi məbləğlərini müəyyən etmək və büdcəyə toplaya bildikləri vəsaiti xərcləməkdən uzağa gedə bilmir. Bələdiyyələrdə nəinki reqlamentləşdirilmiş qaydada büdcə planlaşdırılması işi təşkil olunmur, heç büdcənin icrası vəziyyətinin təhlili aparılmır, büdcənin gəlir və xərcləri üzrə proqnozlara əməl edilməməsinin səbəbləri belə dərindən araşdırılmır. Hətta elə hallarla da rastlaşmaq olar ki, bələdiyyələr vergi bazasını dəqiq və düzgün müəyyənləşdirə bilməyiblər. Nəticədə bələdiyyələr büdcə vəsaitini vaxtlı-vaxtında və tam həcmdə toplaya bilmir (təbii ki, burada bələdiyyədə yaşayan əhalinin maddi imkanlarının aşağı olması da mühüm rol oynayır), vəsaitin büdcəyə daxil olmasının ahəngdarlığı təmin olunmur, büdcə vəsaitindən səmərəli istifadə etmək və nəzərdə tutulan işləri reallaşdırmaq mümkün olmur. Bütün bunlar, bir tərəfdən, qanunvericilikdə dəqiq müəyyən olunmuş norma və tələblərin yoxluğu, habelə bələdiyyələrin bu işdə səriştəli mütəxəssislərinin olmaması ilə bağlıdırsa, digər tərəfdən, həm də daha çox dərəcədə, indiyədək bu işdə bələdiyyələrə yardımçı ola biləcək metodiki tövsiyə və vəsaitlərin işlənilməməsi ilə əlaqədardır.

Bunu nəzərə alan "Ekspert" jurnalı bələdiyyələrdə büdcə sənədləşməsi işini qanunvericiliyin tələblərinə uyğunlaşdırmaq, bu sahədə onların bilik və bacarıqlarının təkmilləşməsinə metodiki yardım göstərmək məqsədilə 2004-cü ilin yayından Oxfam-GB Beynəlxalq humanitar təşkilatının maliyyə dəstəyi ilə xüsusi layihə həyata keçirməyə başladı. Layihə çərçivəsində Bərdə şəhər, Xanərəb və Qaravəlli kənd bələdiyyələrində yerli büdcə prosesinin təşkili, büdcə sənədləşməsi, büdcə ilə əlaqədar sosial-iqtisadi

inkişaf proqramlarının hazırlanması, büdcə prosesində ictimai iştirak və ictimai nəzarət işlərinin qaydaya salınması istiqamətində geniş tədbirlər həyata keçirilib.

Layihə çərçivəsində əvvəlcə bələdiyyədə büdcə quruculuğu və büdcə prosesi haqqında Model Əsasnamə işləmişik. 8 fəsildən və 35 maddədən ibarət bu sənəddə yerli büdcə prosesinin və büdcə quruculuğunun demək olar bütün məsələləri öz əksini tapıb:

- *büdcə prosesinin mərhələləri konkret müddət göstərilməklə işlənilib;*
- *hər bir mərhələdə icra olunmalı fəaliyyət, bələdiyyə orqanlarının və yerli büdcə prosesinin digər iştirakçılarının funksiya və səlahiyyətləri göstərilib;*
- *büdcə planlaşdırılması və büdcə sənədləşməsi sistemi qurulub;*
- *büdcənin icrasına cari və ictimai nəzarətin təşkili və icra barədə hesabatlılıq qaydaları nəzərdə tutulub;*
- *büdcə prosesində bələdiyyə ərazisində yaşayan əhali qruplarının və ictimai təşkilatların iştirakı qaydaları, büdcə dinləmələrinin keçirilməsi formaları təsbit olunub və s.*

Model Əsasnamə ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanıb və bu zaman büdcə sisteminin vahidliyi prinsipindən çıxış edərək yerli büdcə prosesini dövlət büdcə prosesinə uyğunlaşdırmışıq.

Yeri gəlmişkən qeyd etməliyik ki, yerli büdcə prosesinin dövlət büdcə prosesinə uyğun reqlamentləşdirilməsi məsələsi sonradan ölkə qanunvericiliyində də rəsmiləşdirildi. Belə ki, layihə çərçivəsində işlərin davam etdirilməsi ilə yanaşı layihənin ekspertləri ölkənin müvafiq qanunvericiliyində dəyişiklərin aparılması məsələsini də davamlı olaraq ayrı-ayrı tədbirlərdə və mediada aktual problem kimi qabardıb. Nəhayət, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2004-cü il tarixli Qanunu ilə "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanuna yerli büdcə prosesinin reqlamentləşdirilməsi ilə əlaqədar dəyişikliklər və əlavələr edilib. Həmin dəyişikliklərlə yerli büdcə prosesi dövlət büdcə prosesinə uyğunlaşdırılıb. Yeni dəyişikliklərə əsasən, bələdiyyələr cari ilin yanvar ayından gec olmayaraq növbəti ilin büdcə layihəsinin hazırlanmasına başlamalı, yerli büdcə prosesi haqqında qərar layihəsi müvafiq sənədlərlə birgə oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim olunmalı, layihə iclasa təqdim edildikdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədilə mətbuatda dərc edilməlidir. Bələdiyyə yerli büdcə layihəsi dərc olunduğu gündən ən geci 45 gün ərzində ictimai dinləmə təşkil edərək onu vətəndaşlarla birgə müzakirə etməlidir. Növbəti büdcə ili üçün yerli büdcənin layihəsi bələdiyyə iclasında cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilməlidir.

Bununla belə, bir məsələni də qeyd etməliyik ki, həmin dəyişikliklər yerli büdcə prosesinə təqvim baxımından bir sıra ciddi müəyyənliklər gətirsə də, yerli büdcə prosesinin tamamilə reqlamentləşdirilməsini başa çatdıra bilməyib.

Layihə çərçivəsində işlədiyimiz Model Əsasnamədə isə yerli büdcə prosesinin demək olar bütöv bir proseduru işlənilib. Nəzərə almaq lazımdır ki, büdcə prosesinin proseduru dedikdə heç də yalnız büdcə qərarlarının qəbulunun formal çərçivələrə salınması başa düşülməməlidir. Bu, əslində, bələdiyyənin maliyyə resurslarının istifadəsi məsələsində bələdiyyə ərazisindəki bütün sosial və iqtisadi qrupların maraqlarının əlaqələndirilməsi deməkdir və kifayət qədər mürəkkəb bir prosesdir. Ona görə ki, hər hansı bir büdcə (istər dövlət, istərsə də bələdiyyə büdcəsi olsun) müxtəlif sosial, siyasi və iqtisadi maraqlar və baxışlar arasında (büdcə la-

yihəsinin hazırlanması, onun müzakirəsi və təsdiq edilməsi zamanı) meydana çıxan müəyyən konfliktlərin hansısa formada (əksər hallarda konsensus əsasında) həll olunmuş nəticəsidir. Başqa sözlə, büdcə müxtəlif maraqların konsensusu əsasında ortaya çıxan tarazlıq nöqtəsi kimi çıxış edir. Deməli, büdcə proseduru sistemi - mahiyyətcə məhz belə tarazlığın **institusional təminatı** hesab olunur.

İşlənilən Model Əsasnamə tərəfdaş kimi seçdiyimiz hər 3 bələdiyyənin xüsusiyyətləri və yerli şərait nəzərə alınmaqla fərdiləşdirilib, bələdiyyə üzvləri ilə müzakirə olunub və bələdiyyənin ümumi yığıncağında təsdiq olunub. Sonra həmin əsasnamə əsasında bələdiyyədə büdcə prosesinin təşkili həyata keçirilib.

Həmin bələdiyyələrin hər birində büdcə sənədlərinin hazırlanmasına metodiki və texniki yardım (məsləhət) göstərilib. Layihənin iştirakçıları həmin işlərdə bilavasitə iştirak edib. Bələdiyyə büdcəsi sənədlər zərfinə daxildir:

- *Növbəti ilin büdcə layihəsi;*
- *Büdcə gəlirlərinin mənbələr üzrə təsnifatı;*
- *Cari (və ya əvvəlki) ilin büdcəsinin gəlir və xərclər üzrə icrası vəziyyəti (proqnozlardan kənarlaşmanın səbəbləri göstərilməklə);*
- *Büdcə xərclərinin detallaşdırılmış təsnifləşdirilməsi, o cümlədən proqramlar üzrə;*
- *Dövlət büdcəsindən dotasiya istənilməsi üçün zəruri sənədlərin hazırlanması;*
- *Bələdiyyənin sosial-iqtisadi inkişaf proqramları, onların maliyyələşdirmə mənbələri və imkanları;*
- *Ehtiyac (yardım) qruplarının kataloqu;*



- *Sosial yardım siyahısının hazırlanması (sosial yardım göstəriləcək aztəminatlı vətəndaşların sayı və ödəniləcək məbləğlər göstərilməklə);*
- *Bələdiyyənin maliyyə potensialı və s.*

Büdcə ilə bağlı vətəndaş təşəbbüslərinin öyrənilməsi istiqamətində bir sıra tədbirlər təşkil olunub:

- *vətəndaş təşəbbüsləri ictimai poçtu yaradılıb;*
- *bələdiyyənin ictimai xarakterli ən mühüm problemlərinin müəyyən edilməsi üçün vətəndaş müzakirələri təşkil olunub (məsələn, dəyirmi masalar, ümumi yığıncaqlar və s.);*
- *bələdiyyə ərazisində fəaliyyət göstərən ictimai təşkilatlar, icmalar və məhəllə komitələrinin nümayəndələri müzakirələrə cəlb edilib;*
- *müxtəlif sosial qruplarla (məsələn, ağsaqqallar, müəllimlər, gənclər, qadınlar və s.) məsləhətləşmələr təşkil olunub.*

Büdcə məlumatlarının əhaliyə çatdırılması və büdcə layihəsinin əhali qruplarının iştirakı ilə müzakirəsi təcrübələrinin aşılanması üçün:

- *Büdcə məlumatlarının bələdiyyə ərazisində olan mətbuatda dərc edilib;*
- *Bələdiyyə ərazisində büdcə sənədləri üçün stendlər təşkil edilib, müvafiq sənədlərin stendlərdə yerləşdirilməsi təmin olunub;*
- *Büdcə sənədlərinin zərfi ilə əhalinin tanış olması üçün məktəb və kənd (ümumi) kitabxanasında yerləşdirilib;*
- *Bələdiyyə idarəsində həmin sənədlərlə tanışlıq imkanları yaradılıb;*

- *Büdcə dinləmələri təşkil olunub və s.*

Fəaliyyətimizin nəticəsi olaraq bələdiyyədə büdcə prosesinin təşkili sahəsində mütərəqqi təcrübə nümunəsi kimi yerli büdcə prosesinə dair 3 metodiki tövsiyə hazırlamışıq:

**1. Bələdiyyədə büdcə sənədləşməsi.** Burada bələdiyyədə büdcə quruculuğu və büdcə prosesi haqqında Model Əsasnamə, büdcə planlaşdırılması üçün zəruri olan sənədlərin nümunələri toplanıb.

**2. Bələdiyyənin sosial-iqtisadi inkişaf proqramı.** Burada büdcə layihəsinin işlənilməsi üçün zəruri olan və büdcə layihəsi ilə birlikdə bələdiyyənin ümumi yığıncağının təsdiqinə çıxarılan bələdiyyənin yaxın 3 il üçün sosial-iqtisadi inkişaf proqramının nümunələri təqdim olunub.

**3. Bələdiyyədə büdcə idarəçiliyi.** Burada büdcə idarəçiliyində geniş tətbiqi məqsədəuyğun hesab olunan mütərəqqi ictimai iştirak və informasiya texnologiyaları barədə məlumat verilir.

Metodiki tövsiyələri hazırlamaqda məqsədimiz yerli büdcə prosesinin metodiki təminatı sahəsində olan boşluğun qismən də olsa aradan qaldırılmasına nail olmaq, bələdiyyələrdə yaxşı idarəetməni təmin etmək və yerli büdcə prosesi işini müasir tələblər səviyyəsinə qaldırmaq sahəsində bələdiyyələrə yardımçı olmaqdır.

Dəyərli oxucular! İxtiyarınıza verilən bu tövsiyələr layihə əməkdaşlarının və əməkdaşlıq etdiyimiz 3 bələdiyyənin rəhbərləri, bələdiyyə üzvləri və yerli vətəndaşların iştirakı ilə həyata keçirilən qısa müddətli təcrübənin nəticəsi kimi meydana çıxıb. Burada müəyyən çatışmazlıqların və qüsurların olması da qaçılmazdır. Hətta ayrı-ayrı məsələlərin özləri də hələ tam dərindən işlənilməyib. Buna görə də kitablar barəsində fikir və tövsiyələrinizi bizə göndərməyinizi (ekspert@azeronline.com elektron poçtuna) xahiş edirik. Biz bu layihənin əhatə dairəsini daha da genişləndirməyi və daha 10 bələdiyyədə həmin fəaliyyəti həyata keçirməyi nəzərdə tuturuq. Tövsiyələriniz bu işin təkmilləşdirilməsində bizə yardımçı ola bilər. Əslində ilkin təcrübəni yaymaqda məqsədlərimizdən biri də elə budur.

Belə bir əhəmiyyətli işdə bizi dəstəkləyən Oxfam-GB Beynəlxalq humanitar təşkilatına və Oxfam-Azərbaycan təşkilatına, habelə bu işdə bizə yardımçı olan "Aran" regional təşkilatının nümayəndələrinə, bizimlə əməkdaşlıq etməyə razılıq verən bələdiyyə rəhbərlərinə minnətdarlığımızı bildirmək istərdik.

***Azər MEHTİYEV***
***"Şəffaf büdcə" layihəsinin əlaqələndiricisi***

# Bələdiyyədə büdcə quruculuğu və büdcə prosesi haqqında Model Əsasnamə

## I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Bu Əsasnamə bələdiyyə büdcəsinin gəlirlərinin formalaşması və xərclərinin reallaşdırılması, həmçinin yerli büdcə layihəsinə baxılması, təsdiqi, icrası və büdcənin icrasına nəzarət prosesində yaranan hüquqi münasibətləri tənzimləyir.

**Maddə 1. Əsasnamədə istifadə olunan anlayış və terminlər**

**Azərbaycan Respublikasının büdcə sistemi** - Azərbyacan Respublikasında büdcə sistemini dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli (bələdiyyə) büdcələri təşkil edir. Büdcə sisteminin vahidliyi eyni büdcə təsnifatı, büdcə sənədləri və formalarından istifadə olunması, büdcələrin icrasına dair müntəzəm hesabatın və icmal büdcə hesabatının hazırlanması yolu ilə təmin edilir.

**Büdcə ayırmaları** - qanunvericilikdə təsbit olunmuş xərc istiqamətləri üzrə ayrılan büdcə vəsaitləri.

**Büdcə ssudaları** - dövlət büdcəsindən yerli büdcələr, eyni zamanda yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərtilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti.

**Bələdiyyə borcu** - müvafiq xərclərin maliyyələşdirilməsi üçün bələdiyyənin maliyyə-kredit təşkilatlarından müəyyən olunmuş müddətlərdə qaytarılmaq şərtilə götürdüyü maliyyə vəsaiti.

**Dotasiya** - dövlət büdcəsindən yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədilə verilən əvəzsiz maliyyə vəsaiti.



**Qrant** - daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımıdır.

**Yerli büdcə (bələdiyyə büdcəsi)** - bələdiyyənin statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

**Yerli büdcənin müstəqilliyi** - bu, öz mədaxil mənbələrinin və bələdiyyənin yerli büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüququnun olması ilə təmin edilir. Bələdiyyələr maliyyə ilinin sonuna büdcələrində əmələ gəlmiş sərbəst maliyyə qalıqlarına müstəqil sərəncam verirlər.

**Yerli büdcə təsnifatı** - yerli büdcələrin gəlirlərinin, xərclərinin və maliyyələşdirmə mənbələrinin funksional, iqtisadi, təşkilati və s. prinsiplər üzrə qruplaşdırılmasıdır.

**Yerli büdcənin gəlirləri** - bura Azərbaycan Respublikasının müvafiq qanunları ilə müəyyən edilmiş yerli vergi və ödənişlər, həmçinin həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar aid olunur.

**Yerli büdcənin xərcləri** - büdcə təsnifatına uyğun olaraq yerli büdcədən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait.

**Yerli büdcənin kəsiri** - yerli büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir.

**Yerli büdcənin büdcə artıqlığı** - yerli büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir.

**Yerli büdcə prosesi** - "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunu, həmçinin yerli özünüidarəetmə orqanlarının və büdcə prosesinin digər iştirakçılarının fəaliyyətini reqlamentləşdirən normalar əsasında yerli büdcə layihəsinin tərtibi və

ona baxılması, yerli büdcənin təsdiqi və onun icrası, habelə yerli büdcənin icrasına nəzarət prosesini əhatə edir

**Müdafiə olunan xərc maddələri** - qanunvericiliyə uyğun olaraq sekvestr tətbiq olunmayan maddələr

**Məqsədli büdcə fondu** - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məqsədli gəlirlər və ya ayırmalar hesabına yerli büdcənin tərkibində yaradılan və ayrıca xərc smetaları üzrə xərclənən pul fondlarıdır.

**Subvensiya** - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir.

**Subsidiya** - dövlət büdcəsindən yerli büdcələrə və hüquqi şəxslərə verilən əvəzsiz maliyyə yardımıdır.

**Sekvestr** - yerli büdcənin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunan xərc maddələri istisna olmaqla büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı.

**Maddə 2. Bələdiyyədə büdcə quruculuğu və büdcə prosesinin hüquqi əsasları**

1. Bələdiyyədə yerli büdcə prosesi və büdcə quruculuğu "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunu, bələdiyyələrin fəaliyyətini və maliyyə əsaslarını tənzimləyən normativ-hüquqi aktlar, bələdiyyə Nizamnaməsi və bu Əsasnamə ilə tənzimlənir.

2. Bələdiyyənin qəbul etdiyi normativ-hüquqi aktlar bu Əsasnamədə nəzərdə tutulan normalarla ziddiyyət təşkil etməməlidir. Belə uyğunsuzluq yarandığı təqdirdə bu Əsasnamənin müddəaları üstün tutulur.



## II FƏSİL. BƏLƏDİYYƏDƏ BÜDCƏ QURUCULUĞU

**Maddə 3. Yerli büdcənin hüquqi forması**

Bələdiyyə büdcəsi yerli özünüidarə orqanının ümumi iclasının qərarı ilə işlənir və təsdiq olunur.

**Maddə 4. İllik büdcə**

Yerli büdcə təqvim ilinə uyğun olaraq bir illiyə tərtib olunur və yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edir.

**Maddə 5. Bələdiyyənin məqsədli büdcə fondunun yaradılması**

1. Bələdiyyənin məqsədli büdcə fondları yerli büdcənin tərkib hissəsi kimi yaradıla bilər. Belə təsisatlar müstəqil mədaxil mənbələrinə malik ola bilər.

2. Bələdiyyənin məqsədli büdcə fondları üzrə daxilolmalar və xərclər yerli büdcənin gəlir və xərc hissəsində ayrıca göstərilir, həmin fondlar üzrə maliyyə əməliyyatlarına bələdiyyə iclasının qərarı əsasında bələdiyyənin sədri sərəncam verir.

3. Bələdiyyənin məqsədli büdcə fondlarının hesablarında ilin sonuna qalan vəsait onların növbəti ildə gəlirlərinə daxil edilir.

4. Bələdiyyənin məqsədli büdcə fondları müstəqil mədaxil mənbələrinə malik olmayaraq yerli büdcənin vəsaitləri hesabına formalaşdırıldıqda, həmin fondların vəsaitləri yerli büdcənin xərc hissəsində əks etdirilir və ilin sonunda fondların hesabında qalan istifadə olunmamış vəsaitlər yerli büdcəyə qaytarılır.

5. Bələdiyyə yerli rəy sorğusunun nəticələrinə əsasən bələdiyyə ərazisinin sosial, iqtisadi və ekoloji problemlərinin həllilə bağlı proqramları maliyyələşdirmək üçün ərazidə yaşayan, fəaliyyət göstərən fiziki və hüquqi şəxsləri gəlirlərinə və mənfəətinə bir-

dəfəlik ödənişlər tətbiq etməklə məqsədli büdcə fondu yaratmaq səlahiyyətinə malikdir.

6. Məqsədli büdcə fondlarının vəsaitləri belə fondların məqsədli təyinatına uyğun olmayan kənar məqsədlərə xərclənə bilməz.

**Maddə 6. Yerli büdcə təsnifatı**

1. Yerli büdcənin büdcə təsnifatı gəlir və xərclərin, həmçinin yerli büdcənin kəsirinin maliyyələşdirilməsi üçün mənbələrin qruplaşdırılmasıdır.

2. Yerli büdcənin gəlirlərinin təsnifatı "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 25.10.2003-cü il tarixli 149 saylı qərarında, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin maliyyə əsasları haqqında", "Yerli vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası qanunlarında təsbit olunub.

3. Büdcə xərcləri "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası qanununa və Nazirlər Kabinetinin "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi haqqında" 25.10.2003-cü il tarixli 149 saylı qərarına əsasən funksional, iqtisadi və təşkilati xərclər üzrə təsnifləşdirilir. "Büdcə sistemi haqqında" qanunda həmçinin büdcə kəsirinin maliyyələşdirilməsi mənbələrinin təsnifatı təsbit olunub.

4. Funksional təsnifat xərclərin istiqamətini, iqtisadi xərclər xərclərin iqtisadi məzmununu, təşkilati xərclər isə funksional və iqtisadi təsnifatın bölmələri, yarımbölmələri, maddələri, yarımmaddələri üzrə xərc səlahiyyətlərinin idarələr, təşkilatlar və strukturlar üzrə bölüşdürülməsidir.

**Maddə 7. Yerli büdcə paketi**

Növbəti büdcə ili üzrə büdcə layihəsi ilə birlikdə bələdiyyənin sədri aşağıdakı sənədləri bələdiyyənin ümumi yığıncağına təqdim edir:



-növbəti büdcə ili üzrə büdcənin gəlir və xərclərinin funksional, və iqtisadi təsnifatı üzrə paraqraflar səviyyəsində bölmələr, köməkçi bölmələr və yarımbölmələr üzrə layihəsi;

- növbəti büdcə ili üzrə büdcə layihəsinə dair izahat;

-yerli büdcə-vergi siyasətinin əsas istiqamətləri;

-büdcədənkənar əməliyyatlara dair hesabat;

-yerli büdcənin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan proqramlar (sosial və iqtisadi inkişaf, ekoloji və s.);

-cari ilin 9 ayının yekunlarına dair büdcənin gəlir və xərclərinin funksional və iqtisadi təsnifatı üzrə icrasına dair arayış;

-bələdiyyə borclarına dair hesabat.

## III FƏSİL. YERLİ BÜDCƏNİN GƏLİRLƏRİ

**Maddə 8. Yerli büdcənin gəlirlərinin formalaşması**

1. Bələdiyyənin büdcə gəlirləri Azərbyacan Respublikasının büdcə-vergi qanunvericiliyinə, həmçinin yerli özünüidarə orqanlarının maliyyə əsaslarını tənzimləyən qanunlara uyğun olaraq formalaşır.

2. Yerli büdcənin gəlirlərinin tərkibində məqsədli büdcə fondlarının gəlirləri ayrıca olaraq nəzərə alınır.

**Maddə 9. Yerli büdcə gəlirlərinin növləri**

Yerli büdcənin gəlirləri vergi və qeyri-vergi gəlirlərinin, həmçinin əvəzsiz köçürmələrin hesabına formalaşır.

**Maddə 10. Yerli büdcənin vergi gəlirləri**

Yerli büdcənin vergi gəlirlərinə daxildir:

-fiziki şəxslərdən torpaq vergisi;

-fiziki şəxslərdən əmlak vergisi;



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI
3910

-yerli əhəmiyyətli tikinti materialları (kərpic-kirəmit gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik çınqıl xammalı) üzrə mədən vergisi;

-bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi.

**Maddə 11. Yerli büdcənin qeyri-vergi gəlirləri**

Yerli büdcənin qeyri-vergi gəlirlərinə daxildir:

-bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;

-Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödəniş;

-bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və xidmətlərə görə ödəniş;

-bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş. Bu ödəniş hər bir şəxs üçün sutkada şərti maliyyə vahidinin 1 mislindən çox olmamaqla müəyyən olunur;

-bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyənin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş. Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada şərti maliyyə vahidinin 0,1 mislindən çox olmamaqla müəyyən edilir;

-bələdiyyə qanunvericilikdə nəzərdə tutulmuş qaydada yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticələrinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər;



-dövlət büdcəsindən yerli büdcələrə verilən maliyyə yardımları;

-digər qeyri-vergi gəlirləri.

**Maddə 12. Yerli büdcənin əvəzsiz köçürmələrdən daxil olan gəlirləri**

Yerli büdcəyə əvəzsiz köçürmələrə ayrı-ayrı fiziki və hüquqi şəxslər və beynəlxalq təşkilatların maliyyə yardımları və qrantlar daxildir.

## IV FƏSİL. YERLİ BÜDCƏNİN XƏRCLƏRİ

**Maddə 13. Yerli büdcənin xərclərinin tərkibi**

Yerli büdcənin xərcləri onların iqtisadi məzmunundan asılı olaraq cari və əsaslı xərclərə bölünür.

1. Yerli büdcənin cari xərclərinə daxildir:

- əmək haqqı, o cümlədən əmək haqqına üstəlik və sosial sığorta ayırmaları;
- pensiya və başqa sosial müavinətlər və ödənişlər üzrə xərclər;
- faiz ödənişləri
- kommunal xidmətlərin haqqının ödənilməsi;
- ezamiyyə xərcləri;
- sair cari köçürmələr.

2. Yerli büdcənin əsaslı xərclərinə investisiya və innovasiya fəaliyyətini təmin edən aşağıdakı xərclər daxildir:

- bələdiyyənin təsdiq etdiyi investisiya proqramına uyğun olaraq fəaliyyətdə olan və ya yeni yaradılan bələdiyyə hüquqi şəxslərinə yönəldilən sərmayələr;

- investisiya məqsədlərilə hüquqi şəxslərə verilən büdcə kreditləri. Yerli büdcədən büdcə kreditlərinin ayrılması şərtləri bələdiyyənin ümumi yığıncağında qəbul olunan qaydalarla tənzimlənir;

- əsaslı təmir (bərpa) işlərinin aparılması xərcləri;

- bələdiyyənin əmlakının genişləndirilməsinə yönəldilən xərclər;

- iqtisadi təsnifata uyğun olaraq digər kapital xərcləri;

- alınmış kreditlər üzrə borclara xidmət, ayrı-ayrı layihələrdə iştirak payının maliyyələşdirilməsi xərcləri.

**Maddə 14. Yerli büdcə xərclərinin formaları**

Yerli büdcənin vəsaitlərinin təqdim olunması aşağıdakı formalarda həyata keçirilir;

- bələdiyyə aparatının saxlanmasına ayırmalar;

- bələdiyyə sifarişlərinə, yaxud bağlanmış müqavilələrə uyğun olaraq fiziki və ya hüquqi şəxslər tərəfindən görülən iş və xidmətlərə, onlardan alınmış mallara görə ayırmalar;

- ayrı-ayrı dövlət orqanlarının bələdiyyələrə həvalə etdiyi səlahiyyətlərin icrasına görə ayırmalar;

- əhaliyə müxtəlif sosial ödənişlər;

- hüquqi şəxslərə büdcə kreditləri;

- dövlət idarəetmə orqanlarının qəbul etdiyi qərarlar nəticəsində bələdiyyənin xərclərinin artması və ya gəlirlərinin azalması ilə bağlı ödənilən kompensasiyalar;

- bələdiyyə borcuna xidmətə yönəldilən vəsaitlər;

- bələdiyyə müəssisəsinin yaradılmasına investisiyalar.

**Maddə 15. Müdafiə olunan xərc maddələri**

1. Yerli büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq iqtisadi təsnifatın aşağıdakı maddələri üzrə xərclər müdafiə olunan xərc maddələri hesab olunur və onlara sekvestr tətbiq olunmur:



- əmək haqqı xərcləri;

- əmək haqqına üstəlik;

- bələdiyyə borcuna xidmət xərcləri.

2. Hər il üçün yerli büdcə layihəsi təsdiq olunarkən bələdiyyənin ümumi yığıncağı zəruri sayılan xərc maddələrini müdafiə olunan xərc maddələri kimi sənəddə təsbit edə bilər.

**Maddə 16. Bələdiyyə kontraktları və bələdiyyə sifarişi**

1. Bələdiyyə kontraktları - bələdiyyənin ehtiyacları üçün yerli büdcənin xərclərində nəzərdə tutulmuş vəsaitlərin reallaşdırılması məqsədilə fiziki və hüquqi şəxslərlə bələdiyyə adından bağlanmış müqavilələrdir.

2. Bələdiyyə sifarişləri - iş və xidmətlərin göstərilməsi, malların alınması üzrə bələdiyyələrin hüquqi və fiziki şəxslərə verdiyi sifarişlərdir.

3. Bələdiyyə sifarişlərinin verilməsi qaydaları "Bələdiyyə sifarişlərinin verilməsi qaydalarının təsdiq olunması haqqında" Azərbaycan Respublikası Qanunu əsasında həyata keçirilir.

**Maddə 17. Bələdiyyə alqı-satqılarının reyestri**

1.Bələdiyyə verdiyi bütün sifarişlərin reyestrini aparmalıdır.

2.Reyestrdə aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- sifarişin həyata keçirilməsi üçün bağlanmış müqavilənin nömrəsi və tarixi;

- alınan malın, göstərilən xidmətin və görülən işin adı;

- alınan malın, göstərilən xidmətin və görülən işin ümumi həcmi və ya sayı;

- alınan mal, göstərilən xidmət və görülən iş üçün ödənilən büdcə vəsaiti;

- alınan malın, göstərilən xidmətin və görülən işin bir vahidinin qiyməti;

- malın alınması, iş və xidmətin göstərilməsinin vaxtı;

- malın alınması, iş və xidmətin göstərilməsi üçün ödəmənin vaxtı:

- bələdiyyə sifarişini həyata keçirən müəssisə, təşkilat və ya fiziki şəxsin adı, ünvanı, bank rekvizitləri və VÖEN-i.

**Maddə 18. Ehtiyat fondu**

1. Bələdiyyənin ümumi yığıncağının qərarına əsasən yerli büdcədə nəzərdə tutulmayan xərclərin örtülməsi və fövqəladə halların nəticələrinin aradan qaldırılması məqsədilə yerli büdcənin xərclər hissəsində ehtiyat fondunun yaradılması üçün vəsait nəzərdə tutula bilər.

2. Ehtiyat fondunda vəsaitin həcmi növbəti büdcə ilinin gəlirlərinin 5 faizdən çox ola bilməz.

3. Ehtiyat fondunun vəsaitinin istifadə müddəti büdcə ilinin sonunda başa çatır.

4. Ehtiyat fondunun vəsaitlərindən istifadə istiqamətləri üçdə iki səs çoxluğu ilə bələdiyyə iclasının qərarı əsasında müəyyən olunur.

## V FƏSİL. YERLİ BÜDCƏNİN KƏSİRİ VƏ PROFİSİTİ

**Maddə 19. Yerli büdcənin kəsiri və onun örtülməsi mənbələri**

1.Yerli büdcənin kəsirinin məbləği növbəti büdcə ili üzrə yerli büdcənin layihəsinə dair sənəddə müəyyən olunur. Büdcə kəsirinin məbləği müəyyən olunarkən ərazinin sosial-iqtisadi və ekoloji problemlərinin həllilə bağlı hazırlanmış layihələr, əhalinin sosial-ictimai ehtiyaclarının həcmi nəzərə alınır.



2.Yerli büdcənin cari xərcləri onun gəlirlərindən çox olmamalıdır.

3.Büdcə kəsiri dövlət büdcəsindən alınmış dotasiya hesabına maliyyələşdirilir.

4.Yerli büdcənin kəsiri kreditlər hesabına maliyyələşdirilə bilməz.

5.Yerli büdcə kəsirinin örtülməsi üçün bələdiyyə lotereyaları da buraxıla bilər. Bələdiyyə lotereyalarının buraxılması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyilə tənzimlənir.

**Maddə 20. Yerli büdcənin profisiti**

Cari ilin yekunlarına əsasən yerli büdcədə yaranmış profisit növbəti ilin büdcə gəlirlərində nəzərə alınır. Artıq vəsaitin istifadə istiqamətlərini bələdiyyə sədrinin müraciəti əsasında bələdiyyənin iclası müəyyən edir.

## VI FƏSİL. BƏLƏDİYYƏNİN VƏ ONUN AYRI-AYRI STRUKTURLARININ BÜDCƏ SƏLAHİYYƏTLƏRİ

**Maddə 21. Bələdiyyənin ümumi yığıncağının büdcə səlahiyyətləri**

Bələdiyyə üzvlərinin ümumi yığıncağı yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:

- yerli büdcə layihəsinin tərtibinə başlanması ilə əlaqədar müvafiq qərar qəbul edir;
- yerli vergilərin dərəcələrinin aşağı salınması, yerli ödənişlərin müəyyən olunması barədə qərar qəbul edir;
- yerli sosial müdafiə, sosial inkişaf, yerli iqtisadi və yerli ekoloji proqramları qəbul edir, onların icrasına nəzarət edir;
- yerli büdcənin icrasına nəzarət edir

- xərclər smetasını təsdiq edir;
- yerli büdcədən vəsaitlərin funksional və iqtisadi istiqamətlər üzrə ayrılması barədə qərar qəbul edir;
- yerli büdcənin icrası ilə bağlı hesabatı təsdiq edir;
- yerli büdcə vəsaitlərinin, həmçinin bələdiyyənin büdcədənkənar fondlarının və ehtiyat fondunun vəsaitlərinin təyinatı üzrə xərclənməsinə nəzarət edir;
- bələdiyyənin unitar müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətilə bağlı hesabatları müzakirə edir, müvafiq qərarlar qəbul edir, həmin müəssisələrdə araşdırma aparmaq üçün bələdiyyə üzvləri və qulluqçularından, həmçinin müstəqil mütəxəssislərdən ibarət komissiya yaradır;
- bu Əsasnaməyə uyğun olaraq yerli büdcədən büdcə kreditlərinin verilməsinin qayda və şərtlərini müəyyən edir;
- bu Əsasnaməyə uyğun olaraq bələdiyyənin daxili və xarici borclanmasının qayda və şərtlərini müəyyən edir;
- yerli büdcəyə vergi və ödənişlərin ödənilməsi müddətlərində dəyişikliklər edilməsi üçün limit müəyyən edir.

**Maddə 22. Bələdiyyə sədrinin büdcə səlahiyyətləri**

Bələdiyyənin sədri (sədr olmadıqda onun müavini) yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:
- yerli büdcə layihəsinin hazırlanmasını təşkil edir, bu işə ümumi rəhbərliyi həyata keçirir;
- yerli büdcə layihəsilə birgə bələdiyyənin ümumi yığıncağında təsdiq edilmək üçün zəruri sənədləri və materialları büdcə paketinə daxil edir;
- yerli büdcənin icrasını təşkil edir;
- yerli büdcənin icrası ilə bağlı hesabatı təsdiq olunmaq üçün bələdiyyənin ümumi yığıncağına təqdim edir;



- bələdiyyənin ümumi yığıncağının yerli büdcədən vəsaitlərin ayrılmasına dair qərarından sonra xərclərin kassa icrasına sərəncam verir.

**Maddə 23. Bələdiyyənin büdcə məsələləri və başqa daimi komissiyalarının büdcə səlahiyyətləri**

1. Bələdiyyənin büdcə məsələləri daimi komissiyası yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:
- yerli büdcəyə, yerli vergi və ödənişlərə dair qərar layihələrini hazırlayır və ya təqdim olunmuş qərar layihələrinə rəy verir;
- yerli büdcəyə nəzarətlə bağlı məsələlərə baxır və bələdiyyəyə təkliflər verir;
- yerli büdcəyə dair başqa daimi komissiyaların təklifinə baxır və bu təkliflər barəsində rəy verir;
- yerli büdcənin icrası ilə bağlı hesabatlara dair rəy hazırlayır;
- yerli büdcə məsələlərilə bağlı bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

2. Bələdiyyənin digər daimi və başqa işçi komissiyaları yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:
- yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf və yerli ekoloji proqramlarının layihələrini, bu proqramların həyata keçirilməsilə bağlı qərar layihələrini hazırlayır;
- yerli büdcənin xərclərinin strukturunun təkmilləşdirilməsilə bağlı bələdiyyələr üçün müvafiq təkliflər işləyir.

**Maddə 24. Bələdiyyənin icra aparatının büdcə səlahiyyətləri**

Bələdiyyənin icra aparatı yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:
- bələdiyyənin ümumi yığıncağında baxılmaq və təsdiq edilmək üçün yerli büdcənin, həmçinin büdcə paketinə daxil olan inkişaf

proqramlarının layihəsini və müvafiq qərarların layihəsini hazırlayır;

- bələdiyyənin vergi-büdcə siyasətilə bağlı qəbul etdiyi qərarları həyata keçirir;

- yerli büdcədə nəzərdə tutulmuş fəaliyyətləri reallaşdırır;

- icra aparatının tərkibində yaradılan maliyyə-mühasibat struktur bölmələri təsdiq olunmuş xərclər smetası, funksional və iqtisadi təsnifat üzrə büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı umumi yığıncağın qərarının və bələdiyyə rəhbərliyinin müvafiq sərəncamının icrasını təmin edir;

- bələdiyyələrin mülkiyyətini və onların istifadəsinə verilmiş başqa mülkiyyəti idarə edir.

**Maddə 25. Bələdiyyənin vergi xidməti orqanının büdcə səlahiyyətləri**

Bələdiyyənin vergi xidməti orqanı yerli büdcə ilə bağlı aşağıdakı məsələləri həll edir:

- yerli vergi və ödənişlərə dair qərar layihələrini hazırlayır və ya təqdim olunmuş qərar layihələrinə rəy verir;

- yerli vergi və ödənişlərin müəyyən olunmuş qaydada hesablanmasına, vaxtında və tam məbləğdə yerli büdcələrə ödənilməsinə nəzarəti həyata keçirir;

- yerli vergi və ödənişlər üzrə borcların və bu borclar üzrə hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının alınmasını təmin edir;

-yerli vergi və ödənişlərin ödəyicilərinin uçotunu aparır;

- ödəyicilərin artıq ödədiyi məbləğlərin qanunvericiliklə müəyyən olunmuş qaydalarda əvəzləşdirilməsini, yaxud geri qaytarılmasını təmin edir;

-yerli vergilərə dair normativ-hüquqi aktlar və bələdiyyələrin qərarları barədə ödəyiciləri məlumatlandırır;



- yerli vergiləri hesablanmaq, hesablanmış məbləğin ödənilməsi üçün ödəyicilərə tədiyə bildirişi göndərmək;

- bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərdə kameral vergi yoxlamaları keçirir;

- yerli vergi və ödənişlər üzrə vaxtı keçmiş borcların, həmin vergilər üzrə hesablanmış faizlərin alınması, yerli vergilərin ödəyicilərinə maliyyə sanksiyalarının tətbiq olunması barədə məhkəmədə vəsatətin qaldırılması üçün bələdiyyələrə müraciət edir;

- qanunvericiliyə uyğun olaraq ödəyicilərin vergidən azad olunması və ya onlara vergi güzəştlərinin verilməsinə dair bələdiyyəyə təkliflər verir.

## VII FƏSİL. YERLİ BÜDCƏ LAYİHƏSİNİN TƏRTİBİ, MÜZAKİRƏSİ VƏ TƏSDİQİ

**Maddə 26. Yerli büdcə layihəsinin tərtibi üçün zəruri olan sənədlər**

Bələdiyyənin yerli büdcə layihəsinin hazırlanması aşağıdakılara əsaslanır:

- növbəti maliyyə ili üçün sosial-iqtisadi inkişaf strategiyası;

- yerli büdcə-vergi siyasətinin əsas istiqamətləri;

- büdcə gəlirlərinin mənbələr üzrə təsnifatı;

- əvvəlki ilin büdcəsinin gəlir və xərclər üzrə icrasının vəziyyəti, proqnozlardan kənarlaşmaya dair arayış;

- büdcə xərclərinin detallaşdırılmış təsnifatı;

- ehtiyac qruplarının kataloqu;

- sosial yardım siyahısı;

- dövlət büdcəsindən maliyyə yardımları istənilməsi üçün arayış;

- bələdiyyənin gözlənilən borclanması və borcun struktu ilə bağlı arayış;

- vergi güzəştlərinin tətbiqindən yerli büdcənin itkilərinin qiymətləndirilməsinə dair izahat;

- cari ilin büdcəsinin gözlənilən icrasına dair hesabat;

- bələdiyyənin real və yerli büdcə layihəsində əks olunmuş faktiki maliyyə potensialı, real və faktiki maliyyə potensialındakı kənarlaşmalara dair izahat.

**Maddə 27. Yerli büdcə layihəsinin tərtibi**

1. Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və bələdiyyənin ümumi yığıncağına təqdim olunan günədək olan dövrü əhatə edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim olunmasına bələdiyyə sədri cavabdehdir. Bu məqsədlə o, bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər.

2. Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyə ərazisinin sosial-iqtisadi inkişaf proqnozları, xüsusi mülkiyyətdə olan pay torpaqlarından, fiziki şəxslərin daşınar və daşınmaz əmlakından, həmçinin bələdiyyə əmlakının özəlləşdirilməsindən və istifadəyə verilməsindən əldə olunacaq gəlirlərin pronozlaşdırılan həcmi, yerli əhəmiyyətli tikinti materiallarının hasilatı üzrə proqnozlar, bələdiyyə müəssisələrinin istehsal gücü üzrə proqnozlar, habelə növbəti il üzrə dövlət büdcəsindən alınması gözlənilən dotasiya, subvensiya və subsidiyaların həcmi əsasında hazırlanır.

3. Yerli büdcə layihəsinin tərtibi prosesinə yanvar ayının üçüncü ongünlüyü ərzində bələdiyyənin ümumi yığıncağının müvafiq qərar qəbul etməsi ilə başlanır.

4. Fevral ayının 1-dən aprel ayının 10-dək bu qaydaların 22-ci maddəsində göstərilən sənədlərin ilk variantı bələdiyyənin müvafiq strukturları tərəfindən hazırlanır və ümumi yığıncağın ilkin müzakirəsinə təqdim edir.

5. Aprelin 25-dək dövlət büdcəsindən maliyyə yardımları istənilməsi üçün zəruri olan bütün göstəricilər tam dəqiqləşdirilir və aşağıdakı sənədlər may ayının 1-dək Maliyyə Nazirliyinə təqdim olunur:

- cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

- növbəti büdcə ili üzrə yerli büdcənin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və başqa maliyyə yardımlarının həcminin əsaslandırılması;

- ötən ildə yerli büdcənin icrası barədə auditor rəyi;

- Maliyyə Nazirliyinin sorğusuna əsasən digər materiallar.

6. May ayının 1-dən oktyabr ayının 10-dək bələdiyyənin müvafiq strukturları yerli büdcə layihəsinin, layihənin tərtibi üçün zəruri olan bütün sənədlərin və onlardakı göstəricilərin tam dəqiqləşdirilməsini aparır.

**Maddə 28. Yerli büdcə layihəsinin müzakirəsi**

1. Növbəti büdcə ili üçün yerli büdcə prosesi haqqında qərar layihəsi müvafiq sənədlərlə birgə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edir.

2. Yerli büdcənin layihəsi yerli əhalinin onunla tanış olması məqsədilə bələdiyyə iclasına təqdim olunduğu tarixdən 10 gün müddətində mətbuatda dərc edilir.

3. Bələdiyyə yerli büdcə layihəsi dərc olunduğu gündən ən geci 45 gün ərzində ictimai dinləmə təşkil edərək onu vətəndaşlarla birgə müzakirə edir.

**Maddə 29. Yerli büdcə layihəsinin təsdiqi**

Növbəti büdcə ili üçün yerli büdcənin layihəsi bələdiyyə iclasında cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilir;

Yerli büdcə layihəsi bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul olunur.

## VIII FƏSİL. YERLİ BÜDCƏNİN İCRASI

**Maddə 30. Yerli büdcənin kassa icrası**

1. Bələdiyyənin yerli büdcəsinin gəlir və xərcləri üzrə əməliyyatlar kassa icrası qaydasında həyata keçirilir.

2. Yerli büdcənin kassa icrası büdcə daxilolmalarının tədiyə bildirişi əsasında bələdiyyənin hesablaşma hesabında və kassasında yığılmasını, bu daxilolmaların büdcə təsnifatına uyğun şəkildə sistemləşdirərək kassa uçotuna alınmasını, büdcə xərcləri üzrə bələdiyyə öhdəliklərinin qəbul olunmasını, həmin öhdəliklərə uyğun həyata keçirilmiş mal, iş və xidmət satınalınmalarının kreditor borcu kimi kassa uçotuna qəbul olunmasını və bu cür borcların bilavasitə kassadan və ya hesablaşma hesabından ödənilməsini təmin edir.

3. Yerli büdcənin gəlirlərinin icrasını təmin edən strukturlar müəyyən olunmuş formalara uyğun olaraq gəlirlərin təsnifatı üzrə ilin əvvəlindən artan yekunla aylıq və rüblük hesabatları bələdiyyənin ümumi yığıncağına təqdim edir.

4. Bələdiyyə rəhbərliyi yerli büdcə vəsaitlərindən istifadə, onların hərəkəti barədə funksionl və iqtisadi təsnifat üzrə aylıq və rüblük hesabatları bələdiyyənin ümumi yığıncağına təqdim edir.

5. Yerli büdcənin kassa icrasına sərəncamı bələdiyyənin sədri, sədr olmadıqda onun müavini verir.



6. Bələdiyyənin satın aldığı mallara, qəbul etdiyi iş və xidmətlərə görə mühasibatlıq tərəfindən qabaqcadan büdcə öhdəliyi götürülür və bu öhdəliklər çərçivəsində yaranan kreditor borcları ya nağd şəkildə kassadan, ya da köçürmə qaydasında hesablaşma hesabından ödənlir.

7. Öhdəliklər uçota alınır və yerli büdcənin icrası ilə bağlı hesabatlara daxil edilir.

8. Xərclərin kassa icrası bələdiyyənin ümumi yığıncağının məqbul saydığı hallarda satınalınmaların dəyərinin əvvəlcədən ödənilməsi vasitəsilə də həyata keçirilə bilər.

9. Yerli büdcənin icrası prosesində qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqdan sonra həyata keçirilə bilməz. Belə öhdəliklər üzrə ödəmələr növbəti büdcə ilindəki ayırmalar hesabına təmin olunur.

10. Maliyyə ili dekabrın 31-də başa çatır.

11. Dekabrın 25-dən sonra cari ilin yerli büdcəsi hesabına büdcə öhdəliyinin götürülməsi qadağandır. Cari ildə götürülmüş öhdəliklər üzrə ödənişlərin həyata keçirilməsi 31 dekabr saat 24.00-da dayandırılır.

12. İlin sonuna bütün maliyyə qalıqları (məqsədli təyinatlı vəsaitlər istisna olmaqla) bələdiyyənin hesablaşma hesabına köçürülür.

13. Yerli büdcənin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmamış vəsait növbəti ilin büdcəsində nəzərə alınır.

**Maddə 31. Yerli büdcəyə yenidən baxılması və xərclərə sekvestr tətbiq olunması**

1. Yerli büdcənin gəlir və xərcləri arasında tarazlığın təmin olunması onun tərtibinin və icrasının mühüm şərtidir.

2. Yerli büdcənin icrası prosesində bələdiyyənin ümumi yığıncağı yerli büdcənin dəqiqləşdirilməsi barədə qərar verə, mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq olunmuş təxsisat həddində dəyişikliklər apara bilər.

3. Yerli büdcənin icrası prosesində onun gəlir və xərcləri arasında uyğunsuzluq yarandıqda bələdiyyənin sədri bu barədə bələdiyyənin ümumi yığıncağına məlumat verir. Bu məsələ bələdiyyənin növbəti iclasında müzakirə olunur, müzakirələrdən əldə olunan nəticələr əsasında bələdiyyənin büdcə komissiyasına və vergi xidməti orqanına müvafiq tapşırıqlar verilir. Adıçəkilən strukturlar bələdiyyənin növbəti iclasınadək gəlir və xərclər arasında yaranmış uyğunsuzluğun aradan qaldırılması istiqamətində tədbirlər görür.

4. Əgər bu müddət ərzində büdcə daxilolmalarının proqnozda nəzərdə tutulan səviyyəyə çatdırılmasının mümkünlüyü aşkarlanarsa, bələdiyyənin büdcə komissiyası və vergi xidməti orqanı birlikdə əsaslandırılmış izahat hazırlayır və bələdiyyənin ümumi yığıncağına təqdim edir. Bundan sonrakı 3 gün ərzində bələdiyyənin icra aparatı yerli büdcəyə yenidən baxılması üçün bələdiyyə sədrinə, o isə öz növbəsində qarşıdakı 10 gün ərzində bələdiyyənin ümumi yığıncağına müraciət edir.

5. Yerli büdcə gəlirlərinin az daxil olması səbəbindən yaranmış uyğunsuzluğu aradan qaldırmaq üçün müdafiə olunan xərc maddələri istisna olunmaqla funksional və iqtisadi təsnifat üzrə xərclərə mütənasib şəkildə bələdiyyənin ümumi yığıncağının qərarı əsasında sekvestr tətbiq olunur.



## IX FƏSİL. YERLİ BÜDCƏNİN İCRASINA CARİ NƏZARƏT VƏ BÜDCƏNİN İCRASI İLƏ BAĞLI HESABAT

### Maddə 32. Yerli büdcənin icrasına nəzarət

1.Yerli büdcənin icrasına nəzarəti bələdiyyənin ümumi yığıncağı həyata keçirir.

2. Bələdiyyə yerli büdcənin icrasının büdcə göstəricilərinə uyğunluğuna nəzarəti təmin etmək məqsədilə ildə bir dəfə müstəqil auditor cəlb edir.

3. Yerli büdcənin icrasına ictimai nəzarəti təmin etmək məqsədilə hər il bələdiyyə ərazisində yaşayan vətəndaşların iştirakı ilə ictimai dinləmə təşkil olunur. İctimai dinləmənin keçirilmə qaydaları və təşkili prinsipləri bələdiyyənin ümumi yığıncağının qəbul etdiyi ayrıca əsasnamə ilə tənzimlənir.

### Maddə 33. Yerli büdcənin icrası barədə hesabat

1.Yerli büdcənin icrası barədə rüblük hesabat növbəti rübün birinci ayının sonunadək bələdiyyənin iclasına təqdim olunur. Hesabatda gəlir və icra vəziyyəti əks etdirilir.

2.Yerli büdcənin icrası barədə illik hesabat növbəti ilin birinci rübünün sonunadək bələdiyyənin rəhbərliyi tərəfindən bələdiyyənin iclasına təqdim olunur. Hesabatda yerli büdcənin gəlir və xərclərinin faktiki icrası ilə proqnoz göstəricilərin müqayisəli təhlili verilir, kənarlaşmaların səbəbləri izah olunur, dövlətdən alınan maliyyə yardımları və qrantların istifadə vəziyyəti və təyinatları barədə ətraflı məlumatlar əks etdirilir, ehtiyat fondundan və məqsədli yerli büdcə fondlarından istifadə vəziyyəti təhlil olunur, bələdiyyə borcları barədə məlumatlar verilir. Hesabatda yerli büdcənin icrası funksional və iqtsadi təsnifat üzrə öz əksini tapır.

**Maddə 34. Yerli büdcənin icrası ilə bağlı audit və maliyyə ekspertizası**

1. Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq olunmuş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir. Bu məqsədlə bələdiyyə ildə ən azı bir dəfə olmaqla hər il aprelin 1-dən gec olmayaraq hesabat ilinin büdcəsini təftiş etmək üçün müstəqil auditorları cəlb edir.

2. Bələdiyyə müvafiq qanunvericiliyə əsasən zərurət yarandıqda Hesablama Palatasının yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirməsinə şərait yaratmağa borcludur.

**Maddə 35. Yerli büdcə prosesilə bağlı qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Yerli büdcənin formalaşmasına və xərclənməsinə səlahiyyətli bələdiyyə strukturları və yerli özünüidarə orqanının müvafiq vəzifəli şəxsləri büdcə sistemi və yerli büdcə ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət daşıyırlar.



## Yerli büdcə layihəsinin bələdiyyə iclasına təqdim olunması

Mövcud qanunvericiliyə əsasən növbəti ilin yerli büdcə layihəsi bələdiyyə sədrinin müvafiq qərarına əsasən müzakirə və təsdiq üçün bələdiyyənin iclasına təqdim olunur. Həmin qərarın nümunəsi Xanərəb bələdiyyəsinin timsalında aşağıda təqdim olunur.

**XANƏRƏB BƏLƏDİYYƏSİNİN SƏDRİ**

**Xanərəb bələdiyyəsinin iclasına**

"Büdcə sistemi haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanunlarına və Xanərəb bələdiyyəsinin yerli büdcə prosesi haqqında Əsasnaməsinə uyğun olaraq Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinin layihəsi aşağıdakı sənədlərlə birgə müzakirə və təsdiq üçün bələdiyyə iclasına təqdim olunur:

-növbəti büdcə ili üzrə büdcənin gəlir və xərclərinin funksional, və iqtisadi təsnifatı üzrə paraqraflar səviyyəsində bölmələr, köməkçi bölmələr və yarımbölmələr üzrə layihəsi;

- növbəti büdcə ili üzrə büdcə layihəsinə dair izahat;

-yerli büdcə-vergi siyasətinin əsas istiqamətləri;

-büdcədənkənar əməliyyatlara dair hesabat;

-yerli büdcənin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan proqramlar (sosial və iqtisadi inkişaf, ekoloji və s.);

-cari ilin 9 ayının yekunlarına dair büdcənin gəlir və xərclərinin funksional və iqtisadi təsnifatı üzrə icrasına dair arayış;

-bələdiyyə borclarına dair hesabat.

*C. Abdullayev*
*Xanərəb bələdiyyəsinin sədri*
*14 oktyabr 2004-cü il*

# Yerli büdcə paketi

Büdcə paketi növbəti büdcə ili üzrə büdcə layihəsi ilə birlikdə bələdiyyə sədrinin bələdiyyənin iclasına təqdim etdiyi sənədlər toplusudur. Yerli büdcə paketinə daxil olan sənədləri iki qrupa ayırmaq olar:

1. Yerli büdcə layihəsi
2. Köməkçi sənədlər.

## *Yerli büdcə layihəsi*

Layihə il ərzində bələdiyyənin hansı maliyyə mənbələrinə - həm vergi, həm də qeyri-vergi - malik olduğunu, hər bir mənbədən nə qədər vəsait toplayacağını, hansı funksional istiqamətlərə vəsait xərclənəcəyini, bu istiqamətlər üzrə hansı xərc maddələrinin (əmək haqqı, kommunal xidmət, tikinti, təmir və s. xərclər) nəzərdə tutulduğunu əks elətdirir. Yerli büdcə layihəsinin forması Xanərəb bələdiyyəsinin timsalında aşağıdakı kimidir.

> ***Qeyd:*** *Xanərəb bələdiyyəsinin 2005-ci il üçün büdcə layihəsi ərazidə yaşayan ayrı-ayrı əhali qruplarının, ilk növdəbə ziyalıların və ağsaqqalların, həmçinin gənclərin iştirakı ilə dəyirmi masalar, görüşlər keçirməklə hazırlanıb. Belə görüşlərdə məqsəd icmanın ehtiyaclarını öyrənmək və büdcə prioritetlərini müəyyən edərkən onları nəzərə almaq olub. Ümumilikdə ərazidə 2004-cü ilin iyun-oktyabr aylarında 5 görüş keçirilmişdir.*





**XANƏRƏB BƏLƏDİYYƏSİNİN QƏRARI**

**Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsi**

**1.** Xanərəb bələdiyyəsinin 2005-ci il yerli büdcəsinin gəlirləri 65400000 manat, xərcləri 65400000 manat məbləğində təsdiq olunsun.

**2.** Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinin gəlirləri mədaxil mənbələr üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulur:

| **Gəlirlərin mənbələri** | **Büdcənin gəlirləri (manat)** |
|---|---|
| **ÜMUMİ GƏLİRLƏR** | **65 400 000** |
| **Vergilərdən daxilolmalar** | **44 400 000** |
| Gəlirlərdən (mənfəətdən) vergilər | - |
| Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi | - |
| **Mülkiyyətdən vergilər** | **44 400 000** |
| Torpaq vergisi | 43 400 000 |
| Kənd təsərrüfatı üçün istifadə olunan torpaqlara görə fiziki şəxslərin torpaq vergisi | 36 700 000 |
| Yaşayış fondlarının, həyətyanı sahələrin və bağ sahələrinin torpaqlarına görə torpaq vergisi | 6 700 000 |
| Digər təyinatlı torpaqlara görə fiziki şəxslərin torpaq vergisi | - |

| | |
|---|---|
| **Əmlak vergisi** | **1 000 000** |
| Fiziki şəxslərin xüsusi mülkiyyətində olan nəqliyyat vasitələrindən əmlak vergisi | 1 000 000 |
| Fiziki şəxslərin xüsusi mülkiyyətində olan əsas vəsaitlərdən əmlak vergisi | - |
| Fiziki şəxslərin sair əmlakından əmlak vergisi | - |
| **Mal və xidmətlərə görə vergilər** | - |
| Mədən vergisi | - |
| Yerli əhəmiyyətli tikinti materiallarına görə mədən vergisi | - |
| Qrantlar | - |
| **Digər gəlirlər** | **21 000 000** |
| İcarə haqqı | 6 000 000 |
| Daşınmaz bələdiyyə əmlakının icarəyə verilməsindən icarə haqqı | - |
| Bələdiyyə torpağının icarəyə verilməsindən icarə haqqı | 6 000 000 |
| Bələdiyyə əmlakının satışından daxilolmalar | - |
| Bələdiyyə torpağının satışından daxilolmalar | - |
| Ödənişlər | - |
| Küçə (divar) reklamlarının yerləşdirilməsi və yayımı üçün ödəniş | - |
| Bələdiyyə torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai-iaşə və digər xidmətlərə görə ödənişlər | - |



| | |
|---|---|
| Sanatoriya-kurort, mehmanxana, turizm xidmətlərinə görə rüsumlar | - |
| İxtisaslaşdırılmış avtomobil dayanacaqları üçün rüsum və bələdiyyələrin müəyyən etdiyi yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və müvəqqəti dayanacaqlar üçün ödəniş | - |
| Bələdiyyə unitar təşkilatının ödədiyi vergi və digər mütləq ödənişlərdən sonra yerdə qalan gəlirlər | - |
| Dövlət büdcəsindən maliyyə yardımları | 15 000 000 |

**3.** Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinə vergi daxilolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

**4.** Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinin xərcləri funksional təsnifatın köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| **Funksional xərc istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|
| **Cəmi xərclər** | **65 400 000** |
| Bələdiyyənin idarəetmə xərcləri | 25 800 000 |
| *Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının saxlanması* | 25 800 000 |
| *Bələdiyyə borcu üzrə xidmətlər* | - |
| Təhsil xərcləri | 6 000 000 |
| Sosial müdafiə | 1 000 000 |
| Nəqliyyat | 15 000 000 |
| *Bələdiyyə yol tikintisi və saxlanması* | 15 000 000 |

| | |
|---|---|
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 17 600 000 |
| Ehtiyat fondu | - |
| Sair xərclər | 17 600 000 |

**5.** Əmək haqqı və əmək haqqına üstəlik xərcləri ilk növbədə, yerdə qalan xərclər isə gəlirlərin səviyyəsinə uyğun olaraq maliyyələşdirilir.

**6.** İqtisadi təsnifata uyğun olaraq Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinin xərcləri aşağıdakı kimidir:

| **İqtisadi təsnifat üzrə xərc maddələri** | **Məbləğ (manatla)** |
|---|---|
| **Cəmi xərclər** | **65 400 000** |
| Əməyin ödənişi | 16 800 000 |
| *Əmək haqqı* | 13 800 000 |
| *Ştatda olan işçilərin əmək haqqı* | 13 800 000 |
| *Ştatdankənar işçilərin əmək haqqı* | 3 000 000 |
| Əmək haqqına üstəlik | 3 000 000 |
| *Dövlət Sosial Müdafiə Fonduna ayırmalar* | 3 000 000 |
| Malların alınması və xidmətlərin haqqının ödənilməsi | 25 600 000 |
| *İdarənin saxlanması* | 4 000 000 |
| Dəftərxana və təsərrüfat xərcləri | 1 000 000 |
| Mətbəə xərcləri | 500 000 |
| İdarənin digər xərcləri | 500 000 |
| Ezamiyyə xərcləri | 2 000 000 |
| *Nəqliyyat xidmətlərinin haqqının ödənilməsi* | 4 500 000 |
| Yanacaq və sürtkü materiallarının alınması | 4 000 000 |
| Digər nəqliyyat xidmətləri | 500 000 |
| *Kommunal və rabitə xidmətlərinin ödənilməsi* | 2 100 000 |
| Elektrik enerjisi haqqının ödənilməsi | 300 000 |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 500 000 |
| Telefon danışıqlarının haqqının ödənilməsi | 1 000 000 |
| Poçt-rabitə xidmətlərinin haqqının ödənilməsi | 300 000 |
| *Digər alışlar və xidmətlər* | 15 000 000 |
| İnventar alınması | 5 000 000 |
| Avadanlığın alınması | 100 000 |
| Abadlaşdırma xidmətlərinin haqqının ödənilməsi | 5 000 000 |
| Digər alış və xidmətlərin haqqının ödənilməsi | 4 000 000 |
| Əhaliyə sosial yardımlar | 1 000 000 |
| Əsaslı xərclər | 21 000 000 |
| *Binaların təmiri* | 6 000 000 |
| *Yolların salınması, təmiri və saxlanması* | 15 000 000 |
| Bank xərcləri | 1 000 000 |
| Ehtiyat fonduna köçürmələr | - |

## *Köməkçi sənədlər*

Büdcə layihəsindən savayı paketə daxil olan yerdə qalan bütün sənədlər köməkçi sənədlər hesab edilsə də, onların sadəcə köməkçi funksiya daşıdığını düşünmək düzgün olmazdı. Onları büdcənin "dili"ni anlamaq, büdcə prosesində maksimum şəffaflığı təmin etmək üçün xüsusi vasitələrdir. Öz növbəsində, bu sənədlər bələdiyyənin prioritetlərini, bələdiyyə kadrlarının bilik və bacarıq səviyyəsini qiymətləndirmək üçün indikator hesab edilə bilər.

Büdcə paketinə daxil olan köməkçi sənədlərə aşağıdakılar aiddir:

1. Bələdiyyənin növbəti il üzrə büdcə layihəsinə dair izahat
2. Yerli vergilər üzrə güzəşt siyahısı
3. Ehtiyac qruplarının kataloqu
4. Sosial yardım siyahısı
5. Bələdiyyənin növbəti il üzrə büdcəsinin gəlirlər və xərclərinin hesabat ilinin faktiki, cari ilin gözlənilən büdcəsinin gəlir və xərclərinin icrası ilə müqayisəsi
6. Bələdiyyənin sosial-iqtisadi inkişaf proqramı

*Həmin sənədlərdən ən vaciblərinin nümunələrini Bərdə və Xanərəb bələdiyyələrinin timsalında təqdim edirik.*



### 1. Bələdiyyənin növbəti il üzrə büdcə layihəsinə dair izahat

Bələdiyyənin büdcə komissiyası növbəti ilin büdcə layihəsinə müşayiətedici sənəd kimi layihəyə dair izahat hazırlamalıdır. İzahatda gəlir və xərclər mütləq rəqəmlərlə göstərilməklə yanaşı, ayrı-ayrı gəlir və xərc istiqamətlərinin büdcənin məcmu gəlir və xərclərində xüsusi çəkisi hesablanılıb göstərilməlidir. Bundan əlavə, qeyd olunan göstəricilərin cari ilin proqnoz göstəriciləri ilə müqayisəsi aparılmalıdır. Büdcəyə əlavə edilən izahat həm sıravi vətəndaşlara, həm də ərazidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti qurumlarına bələdiyyə büdcəsi ilə əlaqədar daha təfsilatlı məlumat əldə etməyə imkan verir. İzahatın nümunəsini Bərdə bələdiyyəsinin timsalında təqdim edirik.

### **Bərdə bələdiyyəsinin 2005-ci il büdcə layihəsinə dair izahat**

Bərdə bələdiyyəsinin 2005-ci il üçün büdcə proqnozları ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı proqnozlar, qüvvədə olan vergi dərəcələri əsasında mövcud maliyyə mənbələri üzrə resurslar, yəni fiziki şəxslərin vergiyə gəlb edilməli həyətyanı torpaq sahələrinin fiziki həcmi, qeydiyyatda olan daşınmaz əmlak və onların vergiyə cəlb olunmalı dəyəri, ərazidə yaşayan insanların sosial iqtisadi ehtiyacları və s. əsasında hazırlanıb. Xüsusilə də xərc prioritetləri müəyyən olunarkən bələdiyyə ərazisində yaşayan müxtəlif sosial qrupların rəyləri nəzərə alınıb. Bununla bağlı ziyalılar və gənclərlə müxtəlif formatlı görüşlər keçirilib. Büdcədən sosial yardımların verilməsi üçün ilk dəfə olaraq ehtiyac qruplarının kataloqu işlənilmiş, yardım veriləcək insanların sayı, sorğu və söhbətlər əsasında onların ehtiyaclılıq səviyyəsi qiymətləndirilmişdir.

## GƏLİRLƏR

Bərdə şəhər bələdiyyəsinin 2005-ci il büdcəsi 190 milyon manat proqnozlaşdırılıb ki, bu ötən illə müqayisədə 20 milyon manat və ya 11,8 faiz çoxdur.




Bələdiyyə büdcəsi gəlirlərinin ikinci böyük mənbəsi olan mülkiyyətdən vergilər 54 milyon manat nəzərdə tutulub. Bu mənbədən olan vergilərin payı ümumbüdcə gəlirlərində 28,4 faizdir. 2004-cü ildə mülkiyyətdən vergilər 43 milyon manat proqnozlaşdırılmış və onun gəlirlərdə xüsusi çəkisi 25,3 faizə bərabər olub. Bu mənbədə daxilolmaların gəlirlərdə xüsusi çəkisinin artımı müşahidə olunub.

**Mülkiyyətdən vergilər**in 22 milyon manatı torpaq, 32 milyon manatı isə əmlak vergisi təşkil edir. Torpaq vergisi 40,7 faiz, əmlak vergisi 59,3 faiz xüsusi çəkiyə malikdir.

2004-cü illə müqayisədə hər iki vergi növündə artım planlaşdırılıb. Belə ki, torpaq vergisi 2 milyon manat, əmlak vergisi isə 9 milyon manat artıb.

**Torpaq vergisi**nin 20 milyon manatını (90,9%-ni) yaşayış fondlarının həyətyanı sahələrin və bağ sahələrinin torpaqlarına görə torpaq vergisi, 2 milyon manatını (9,1%) digər təyinatlı torpaqlara görə fiziki şəxslərdən torpaq vergisi təşkil edir.



**Əmlak vergisi**nın 25 milyon manatı (78,1%) fiziki şəxslərin xüsusi mülkiyyətində olan nəqliyyat vasitələrindən əmlak vergisi, 5 milyon manatı (15,6%) əsas vəsaitlərdən əmlak vergisi, 2 milyon manatı (6,3%) fiziki şəxslərin sair əmlakından əmlak vergisi hesabına formalaşır. Vergi Məcəlləsində edilən dəyişiklik nəticəsində fiziki şəxslərin xüsusi mülkiyyətində olan nəqliyyat vasitələrindən əmlak vergisi yol vergisi ilə əvəzlənmiş və o, bələdiyyələrdən alınaraq dövlət büdcəsində daxil edilib. Bununla da Bərdə şəhər bələdiyyəsi əmlak vergisinin 78,1%-ni, ümumbüdcə gəlirlərinin isə 13,2%-ni itirib.

**Mal və xidmətlərə görə vergilər** 2004-cü ildə olduğu kimi 15 milyon manat proqnozlaşırılıb ki, bu da büdcə gəlirlərində 7,9% paya malikdir. Bu verginin əsasını **mədən vergisi** təşkil edir.

**İcarə haqqı** 25 milyon manat olmaqla gəlirlərdə 13,2 % xüsusi çəkiyə malikdir. Bu mənbədən daxilolma 2004-cü illə müqayisədə 25% (5 milyon manat) artıb.

**Bələdiyyə torpağının və bələdiyyəyə məxsus qeyri-maddi aktivlərin özgəninkiləşdirilməsindən daxilolmalar** 14 milyon manat proqnozlaşdırılıb. Bu daxilolmaların büdcədə payı 6,3%-dir.

Ödənişlər büdcə gəlirlərində payı 7,4% olmaqla 12 milyon manat nəzərdə tutulub. Ödənişlərin 33,3%-ni (4 milyon manat) küçə reklamlarının yerləşdirilməsi və yayımından daxilolmalar, 25%-ni (3 milyon manat) sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə rüsumlar, 41,7%-ni (5 milyon manatı) ixtisaslaşdırılmış avtomobil dayanacaqları üçün və bələdiyyələrin müəyyən etdiyi yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və müvəqqəti dayanacaqlar üçün ödənişlər təşkil edir.

Bələdiyyə büdcəsində ən böyük çəkiyə (36,8%) dövlət büdcəsindən maliyyə yardımları təşkil edir - 70 milyon manat. Dotasiyalar 2004-cü ildə olduğu kimi saxlanılıb.

## XƏRCLƏR

Bərdə şəhər bələdiyyəsinin 2005-ci il üzrə xərcləri 190 milyon manat müəyyənləşdirib ki, bu da ötən illə müqayisədə 20 milyon manat və ya 11,8 faiz çoxdur.




Büdcə xərclərinin demək olar ki, yarısı - 44,6%-i (84,64 milyon manat) əməyin ödənişi fonduna yönəldilir. Ştatda olan işçilərin əmək haqqı 59,64 milyon manat, ştatdankənar işçilərin əmək haqqı 7 milyon manat, əməyin ödənişi ilə bağlı sair pul ödənişləri 8 milyon manatdır. Əmək haqqına üstəlik, yəni Dövlət Sosial Müdafiə Fonduna ayırmalar 10 milyon manatdır.

**İdarənin saxlanılması xərcləri** 9 milyon manat proqnozlaşdırılıb. Büdcə xərclərində xüsusi çəkisi 4,7%-dir. İdarənin saxlanılması xərclərinin 5 milyon manatı dəftərxana və təsərrüfat, 2 milyon manatı mətbəə, 2 milyon manatı isə icarənin digər xərclərinə bölünür.

**Ezamiyyə xərclərinin ödənilməsi**nə 5 milyon manat, **nəqliyyat xidmətləri haqqının ödənilməsi**nə 7 milyon manat ayrılması nəzərdə tutulur. Nəqliyyat xidmətləri haqqına ayrılan vəsaitin 5 milyon manatı yanacaq və sürtgü materiallarının alınmasına, 2 milyon manatı digər nəqliyyat xidmətlərinə yönəldiləcək.



**Kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi** maddəsi 40,5 milyon manat təşkil edir və onun büdcə xərclərində xüsusi payı 21,3%-dir. Bunlardan:

- elektrik enerjisi haqqının ödənilməsi - 2 milyon manat
- qaz haqqının ödənilməsi - 1 milyon manat
- su haqqının ödənilməsi - 1 milyon manat
- istilik enerjisi haqqının ödənilməsi - 2 milyon manat
- telefon danışıqları haqqının ödənilməsi - 2,5 milyon manat
- poçt-rabitə xidmətlərinin haqqının ödənilməsi - 1 milyon manat
- inventar alınması - 2 milyon manat
- avadanlığın alınması - 2 milyon manat
- digər alışlar və xidmətlər - 2 milyon manat
- abadlaşdırma xidmətlərinin haqqının ödənilməsi - 25 milyon manat.

Əhaliyə natural pul formasında sosial yardımlar 21,5 milyon manat proqnozlaşdırılıb. 2004-cü ildə aztəminatlı ailələrə maddi yardım 20 milyon manat olub.

Əsaslı xərclər bölməsi 23 milyon manat nəzərdə tutulub. Bunun da 1 milyon manatı binaların təmirinə, 22 milyon manatı isə yolların salınması, təmiri və saxlanmasına yönəldiləcək.

### 2. Yerli vergilər üzrə güzəşt siyahısı

Adətən bələdiyyənin real və faktiki maliyyə potensialı arasında fərq müşahidə olunur. Bu, bir sıra başqa amillərlə yanaşı, həm də ayrı-ayrı vergilər üzrə azadolunmalarla da bağlı olur. Ona görə də hər il büdcə layihəsi hazırlanarkən güzəşt hüququ olan vətəndaşların siyahısı və güzəşt aidə edilən tədiyə növləri, güzəşt olunan məbləğ əks olunan sənəd işlənməlidir. Bu, həm də büdcənin gü-

zəştlər hesabına itkilərini müəyyən etməklə real gəlir proqnozu verməyə yardım edər. Xanərəb bələdiyyəsinin timsalında vergi güzəştləri üzrə hazırlanmış cədvəl nümunəsini təqdim edirik.

**Xanərəb bələdiyyəsi üzrə vergi güzəştləri cədvəli**

| Güzəşt olunan ödəyicinin adı | Ödəyəcəyi vergi (manat) | Güzəşt olunub (manat) | Güzəştdən sonra ödəməlidir (manat) | Güzəşt tətbiq olunan vergi |
|---|---|---|---|---|
| Məmmədov İsa | 58900 | 29450 | 29450 | Torpaq |
| Məmmədov Bəylər | 117800 | 58900 | 58900 | Torpaq |
| Quliyeva Həcər | 78000 | 39000 | 39000 | Torpaq |
| Şükürov Hacı | 98000 | 49000 | 49000 | Torpaq |
| Həsənov Əmanət | 95000 | 47500 | 47500 | Torpaq |
| Məmmədov Elnur | 19000 | 9500 | 9500 | Torpaq |
| Quliyev İman | 59000 | 29500 | 29500 | Torpaq |
| ....... | | | | |
| | | | | |

## 3. Ehtiyac qruplarının kataloqu

Bu, bələdiyyənin əhalinin sosial tərkibi barədə dəqiq məlumatlı olması, ünvanlı sosial yardım üçün səhih informasiyalar əldə edə bilməsi və həmin yardımların səmərəliliyini qiymətləndirməsi, sosial inkişaf proqramlarının işlənməsi zamanı problemlərin prioritetləşdirilməsi baxımından olduqca vacib sənəddir. Xanərəb bələdiyyəsinin timsalında 2005-ci il üçün ərazi üzrə ehtiyac qruplarının kataloqu təqdim olunur.



**Xanərəb bələdiyyəsi üzrə ehtiyac qruplarının kataloqu**

| № | Ehtiyac qrupunun adı | Qrupda təmsil olunan fərdlərin sayı |
|---|---|---|
| 1 | Qarabağ müharibəsi veteranları | 7 nəfər |
| 2 | Qarabağ müharibəsi əlilləri | 2 nəfər |
| 3 | Böyük Vətən müharibəsi veteranları | 2 nəfər |
| 4 | Böyük Vətən müharibəsi əlilləri | 2 nəfər |
| 5 | Şəhid ailələri | 6 ailə (onların ailə üzvlərinin sayı 26 nəfər) |
| 6 | Çoxuşaqlı ailələrin sayı | 57 ailə (4 və daha çox uşağı olan ailələrin sayı) |
| 7 | Tənha ahıl vətəndaşlar | 2 nəfər |
| 8 | Qaçqın və məcburi köçkünlər | 298 nəfər (64 ailə) |
| 9 | Əlillər | 54 nəfər |
| 10 | Tələbələr | 15 nəfər |
| 11 | Pensiyaçılar | 320 nəfər |

## 4. Sosial yardım siyahısı

Bu, bələdiyyənin hazırladığı ehtiyac qrupları üzrə il ərzində ödəyəcəyi sosial yardım və müavinətlər, onların növü, sosial yardım siyasəti ilə əhatə olunacaq insanların sayı və bu məqsədlə xərclənəcək vəsaitlərin məbləği barədə ətraflı məlumatları özün-

də əks etdirir. Sosial yardım siyasəti yerli büdcənin iqtisadi tənifatında "Əhaliyə sosial yardımlar" maddəsinin istifadəsinə dair arayış rolunu oynamaqla, həmin vəsaitlərin təyinatından yayındırılması imkanlarını məhdudlaşdırır. Sosial yardım siyahısına dair sənədin nümunəsi Bərdə bələdiyyəsinin timsalında təqdim olunur.

**Bərdə bələdiyyəsinin 2005-ci il büdcəsinə əsasən sosial yardım siyahısı**

| Ehtiyac qrupunun adı | Yardım alanın ailəsində insanların sayı, nəfərlə | Ailədə adambaşına orta aylıq qazanc, manatla | Sosial yardımın məbləği, manatla | Sosial yardımın növü | |
|---|---|---|---|---|---|
| | | | | Aylıq | Birdəfəlik |
| Şəhid ailəsi | 117 | 65000 | 50000 | Aylıq | - |
| Tənha və kimsəsiz | 27 | 100000 | 50000 | - | - |
| Əlillər | 86 | 600000 | 50000 | - | - |
| Cəmi sosial yardım alanların sayı | | | 230 nəfər | | |
| Cəmi sosial yardıma xərclənəcək | | | 21 500000 manat | | |

## 5. Bələdiyyənin növbəti il üzrə büdcəsinin gəlirlər və xərclərinin hesabat ilinin faktiki, cari ilin gözlənilən büdcəsinin gəlir və xərclərinin icrası ilə müqayisəsi

Bu sənəd bələdiyyənin maliyyə potensialında, büdcə-vergi siyasətində baş verən dəyişikliyi qiymətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu cür müqayisəli cədvəlin tərtibi istər bələdiyyə büdcəsi ilə maraqlanan fəal əhali qruplarının, istərsə də müstəqil ekspertlərin büdcədə baş verən istənilən tendensiyanı asanlıqla üzə çıxarmasına şərait yaradır.



**Xanərəb bələdiyyəsinin 2005-ci il büdcəsinin gəlirlərinin 2003-cü il büdcə gəlirlərinin faktiki icrası və 2004-cü il büdcə gəlirlərinin gözlənilən icrası ilə müqayisəsi**

| Gəlirlərin mənbələri | 2003-cü il faktik icra | 2004-cü il gözlənilən icra | 2005-ci il layihə | Ötən dövrə nisbətən artıb (azalıb), %-lə (+,-) | |
|---|---|---|---|---|---|
| | | | | 2003-cü ilin faktiki icrasına nisbətən | 2003-cü ilin gözlənilən icrasına nisbətən |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Ümumi gəlirlər | 13929 | 44200 | 65400 | 4,6 dəfə | 47,9% |
| Bələdiyyə müəssisələrinin mənfəət vergisi | | | | | |
| Torpaq vergisi | 12929 | 30400 | 43400 | 3,4 dəfə | 42,7% |
| Kənd təsərrüfatı üçün istifadə olunan torpaqlara görə fiziki şəxslərin torpaq vergisi | 10000 | 23700 | 36700 | 3,7 dəfə | 57,8% |
| Yaşayış fondlarının, həyətyanı sahələrin və bağ sahələrinin torpaqlarına görə torpaq vergisi | 2929 | 6700 | 6700 | 2,3 dəfə | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Əmlak vergisi | | 000 | 1000 | | 25% |
| Fiziki şəxslərin xüsusi mülkiyyətində olan nəqliyyat vasitələrindən əmlak vergisi | | 8000 | 1000 | | 25% |
| Fiziki şəxslərin xüsusi mülkiyyətində olan əsas vəsaitlərdən əmlak vergisi | | | | | |
| Mədən vergisi | | | | | |
| Yerli əhəmiyyətli tikinti materiallarına görə mədən vergisi | | | | | |
| Qrantlar | | | | | |
| İcarə haqqı | 2000 | 5000 | 6000 | 2,5 dəfə | 3 dəfə |
| Daşınmaz bələdiyyə əmlakının icarəyə verilməsindən icarə haqqı | | | | | |
| Bələdiyyə torpağının icarəyə verilməsindən icarə haqqı | 2000 | 55000 | 6000 | 2,5 dəfə | 3 dəfə |
| Bələdiyyə əmlakının satışından daxilolmalar | | | | | |



| | | | | | |
|---|---|---|---|---|---|
| Bələdiyyə torpağının satışından daxilolmalar | | | | | |
| Ödənişlər | | | | | |
| Küçə (divar) reklamlarının yerləşdirilməsi və yayımı üçün ödəniş | | | | | |
| Bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai-iaşə və digər xidmətlərə görə ödənişlər | | | | | |
| Sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə rüsumlar | | | | | |
| İxtisaslaşdırılmış avtomobil dayanacaqları üçün rüsum və bələdiyyələrin müəyyən etdiyi yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və müvəqqəti dayanacaqlar üçün ödəniş | | | | | |
| Dövlət büdcəsindən maliyyə yardımları | 1500 | 8000 | 15000 | 6 dəfə | 10 dəfə |

**İqtisadi təsnifata uyğun olaraq Bərdə bələdiyyəsinin 2005-ci il büdcəsinin xərclərinin 2003-cü ilin büdcə xərclərinin faktiki icrası və 2004-cü ilin gözlənilən icrası ilə müqayisəsi**

| Xərclərin iqtisadi təsnifatı | 2003-cü il faktik icra | 2004-cü il gözlənilən icra | 2005-ci il layihə | Ötən dövrə nisbətən artıb (azalıb), %-lə (+,-) | |
|---|---|---|---|---|---|
| | | | | 2003-cü ilin faktiki icrasına nisbətən | 2004-cü ilin gözlənilən icrasına nisbətən |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Cəmi xərclər | 17429 | 44200 | 65 400 | 3,7 dəfə | 47,9% |
| Əməyin ödənişi | 4502,6 | 11200 | 16 800 | 3,8 dəfə | 50% |
| Əmək haqqı | 4002,6 | 10700 | 13 800 | 3,4 dəfə | 29,7 |
| Ştatda olan işçilərin əmək haqqı | 3500 | 9800 | 13 800 | 3,9 dəfə | 41% |
| Ştatdankənar işçilərin əmək haqqı | 502,6 | 1400 | 3 000 | 6 dəfə | 2,1 dəfə |
| ƏMƏK HAQQINA ÜSTƏLİK | 500 | 2500 | 3 000 | 5 dəfə | 20% |
| Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 500 | 2500 | 3 000 | 5 dəfə | 20% |
| Malların (iş və xidmətlərin) alınması | 7804 | 21200 | 25 600 | 3,3 dəfə | 20,8% |
| İdarənin saxlanması | 2604 | 2700 | 4 000 | 53,7% | 53% |
| Dəftərxana və təsərrüfat xərcləri | 854 | 500 | 1 000 | 17,6% | 100% |
| Mətbəə xərcləri | 500 | 500 | 500 | | |
| İdarənin digər xərcləri | 300 | 300 | 500 | 66,7 | 66,7% |
| Ezamiyyə xərcləri | 950 | 1000 | 2 000 | 2.1 dəfə | 2,5 dəfə |
| Nəqliyyat xidmətlərinin haqqının ödənilməsi | - | 820 | 4 500 | | |
| Yanacaq və sürtkü materiallarının alınması | - | 820 | 4000 | | 5 dəfə |
| Digər nəqliyyat xidmətləri | - | - | 500 | | |
| Kommunal- kommunikasiya xidmətlərinin ödənilməsi | 700 | 1800 | 2100 | 3 dəfə | 16,7% |
| Elektrik enerjisi haqqının ödənilməsi | 250 | 300 | 300 | 20% | |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 350 | 500 | 500 | 41% | |
| Telefon danışıqlarının haqqının ödənilməsi | 100 | 1000 | 1000 | 10 dəfə | |
| Poçt-rabitə xidmətlərinin haqqının ödənilməsi | - | | 300 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Digər alışlar və xidmətlər | 4500 | 16100 | 15000 | 3,4 dəfə | 6,8% |
| İnventar alınması | | 9100 | 5000 | | 45% |
| Avadanlığın alınması | - | - | 1000 | | |
| Yumşaq mebelin alınması | - | 4500 | - | | |
| Abadlaşdırma xidmətlərinin haqqının ödənilməsi | 3450 | 2580 | 5000 | 42,7% | 1,9 dəfə |
| Digər alış və xidmətlərin haqqının ödənilməsi | 1050 | - | 4000 | 3,9 dəfə | |
| ƏHALİYƏ SOSİAL YARDIMLAR | - | 1000 | 1000 | | |
| ƏSASLI XƏRCLƏR | 4720 | 9000 | 21000 | 4,6 dəfə | 2,3 dəfə |
| Binaların təmiri | 1220 | 3000 | 6000 | 4,8 dəfə | 2 dəfə |
| Yolların salınması, təmiri və saxlanması | 3500 | 3000 | 15000 | 4,2 dəfə | 5 dəfə |
| Sair əsaslı xərclər | - | 3000 | - | | |
| Bank xərcləri | 400 | 800 | 1000 | 2,5 dəfə | 5-25% |
| Ehtiyat fonduna köçürmələr | - | | - | | |



# DÖVLƏT BÜDCƏSİNDƏN MALİYYƏ YARDIMININ ALINMASI ÜÇÜN MÜRACİƏT

Azərbaycanda fəaliyyət göstərən hər bir bələdiyyənin öz ərazisi nin sosial-iqtisadi inkişaf və ekoloji problemlərinin həlli ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməsi üçün dövlət büdcəsindən maliyyə yardımları almaq hüququ var. Bu yardımlar həm dotasiya (məqsədsiz), həm də subsidiya və subvensiya (məqsədli) formasında ola bilər. "Büdcə sistemi haqqında" Qanunda yerli özünüidarə orqanlarının dövlət büdcəsindən maliyyə yardımları istəməsi üçün zəruri prosedurlar, prinsip və meyarlar təsbit olunub. Həmin vəsaitlərə çıxış əldə etmək üçün bələdiyyələr maliyyə orqanlarına arayışla müraciət etməlidir. Bu arayış bələdiyyənin sadəcə büdcə sifarişlərinin qeydə alınması məqsədi güdmür, həm də alınması nəzərdə tutulan vəsaitlərin gələcək təyinatı ilə bağlı izahedici sənəd rolunu oynayır. Qeyd etmək vacibdir ki, qanunvericilikdə nəzərdə tutulmasına baxmayaraq hazırda bu cür arayış əsasında bələdiyyələrin dövlət büdcəsindən maliyyə yardımı alması məqsədilə müraciət hazırlanması təcrübəsi yoxdur. Hətta ötən dövr ərzində müvafiq hökumət qurumları bununla bağlı hansısa tövsiyə xarakterli sənəd də hazırlamayıb.

Bunu nəzərə alaraq, "Şəffaf büdcə" layihəsi çərçivəsində bələdiyyələrin dövlət büdcəsindən maliyyə yardımı istəməsi üçün müraciət forması hazırlanıb. Bərdə bələdiyyəsinin timsalında həmin arayışın forması nümunə kimi təqdim olunur.

**Azərbaycan Respublikası**
**Maliyyə Nazirliyinə**

**2006-cı maliyyə ili üçün dövlət büdcəsindən dotasiya almaq məqsədilə Bərdə bələdiyyəsi tərəfindən təqdim edilən**

# A R A Y I Ş

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 34.2.-ci maddəsinə əsasən bələdiyyələr yerli büdcələrin xərclərinin gəlirlərlə təmin olunmayan hissəsini, yəni büdcə kəsirini dövlət büdcəsindən alınan dotasiya ilə örtə bilər. Habelə həmin qanunun 11.14-cü maddəsinə əsasən dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək müvafiq sənədləri əsaslandırıcı arayış əsasında müvafiq icra hakimiyyətinə təqdim etməlidir.

Bərdə bələdiyyəsinin müvafiq komissiyalarının və icra aparatının ərazinin sosial-iqtisadi və ekoloji inkişaf perspektivləri, həmçinin bələdiyyə ərazisində yaşayan sakinlərin ictimai tələbatı əsasında həyata keçirdiyi qiymətləndirmələr, habelə Bərdə bələdiyyəsinin vergiqoyma bazasının qiymətləndirilməsi nəticəsində məlum oldu ki, şəhər bələdiyyəsinin 2006-ci il üzrə büdcəsinin xərcləri 220 milyon manat həcmində gözlənilir. Ərazinin və həmçinin bələdiyyə ərazisində yaşayan sakinlərin maliyyə ehtiyacları Bərdə bələdiyyəsinin müvafiq strukturları tərəfindən hazırlanmış "Bərdə şəhər bələdiyyəsinin sosial-iqtisai inkişaf Proqramı



(2006-2008-ci illər)"na, həmçinin Bərdə bələdiyyəsinin 2006-cı il üzrə ilkin büdcə proqnozlarına əsasən müəyyən olunub. İlkin büdcə proqnozları üzrə qiymətləndirmələr isə yerli vergi və ödənişlər üzrə şəhər bələdiyyəsinin gəlirlərinin 120 milyon manatı ötə bilməyəcəyini göstərir. Ona görə də Bərdə bələdiyyəsinin növbəti il üzrə proqnozlaşdırılan 220 milyon manat məbləğində büdcə xərcləri ilə bələdiyyənin öz maliyyə mənbələri əsasında proqnozlaşdırılan 120 milyon manat məbləğində büdcə gəlirləri arasında yaranacaq 100 milyon manat həcmində kəsirin dövlət büdcəsinin maliyyə yardımları hesabına örtülməsi nəzərdə tutulur. Öz növbəsində nəzərə almaq lazımdır ki, Vergi Məcəlləsində 2005-ci ilin yanvarında edilən dəyişiklik nəticəsində fiziki şəxslərin xüsusi mülkiyyətində olan nəqliyyat vasitələrindən əmlak vergisi yol vergisi ilə əvəzlənərək dövlət büdcəsinə daxil edilməsi nəticəsində Bərdə şəhər bələdiyyəsi 2004-ü cü ilin büdcə gəlirlərinin faktiki icra göstəricisi ilə müqayisədə ümumi büdcə gəlirlərinin təxminən 13 faizini itirib. Beləliklə, bütün bu hesablama və qiymətləndirmələr əsasında aparılan yerli büdcə proqnozlaşdırmalarına uyğun olaraq bələdiyyənin 2006-cı il üzrə büdcə gəlirlərinin 54,6 faizinin (120 milyon manat) yerli vergi və ödənişlər, 45,4 faizinin (100 milyon manat) dövlət büdcəsindən alınan dotasiya hesabına təmin edilməsi nəzərdə tutulur.

Bələdiyyə büdcəsinin özünün gəlir mənbələrinin strukturuna gəldikdə, mülkiyyətdən vergilər 28,4 faiz, icarə haqqı 13,2 faiz, mal və xidmətlərə görə vergilər 7,9 faiz, bələdiyyə torpağının və bələdiyyəyə məxsus qeyri-maddi aktivlərin özgəninkiləşdirilməsindən daxilolmlar 6,3 faiz, ödənişlər üzrə daxilolmalar 7,4 faiz həddində proqnozlaşıdırılır.

2006-ci ildə büdcə xərclərinin 38,5 faizi (84,64 milyon manat) əməyin ödənişi fonduna, 4,1 faizi (9 milyon manat) idarənin saxlanılmasına, 18,4 faizi (40,5 milyon manat) kommunal və kommuni-

kasiya xidmətlərinin ödənilməsinə yönəldilir. Bu isə ümumilikdə büdcə gəlirlərinin 61 faizini təşkil edir. Bərdə bələdiyyə büdcəsinin 9,8 faizi (21,5 milyon manat) əhaliyə natural pul formasında sosial yardımlara, 10,5 faizi (23 milyon manat) isə binaların təmirinə, yolların salınmasına xərclənəcək. Bərdə bələdiyyəsinin 2006-cı il üzrə proqnozlaşdırılan büdcə xərclərinin strukturundan da göründüyü kimi, bələdiyyələrə ayrılan maliyyə mənbələri çərçivəsində vergi və ödənişlərin tam həcmdə icra ediləcəyi tədqirdə belə, Bərdə bələdiyyəsinin daxili maliyyə mənbələri hətta bələdiyyənin özünün saxlanması xərclərini (əmək haqqı, aparatın saxlanması, kommunal və nəqliyyat xərcləri) ödəməyəcək. Bu məsələ də Bərdə bələdiyyəsinin 2006-ci ildə dövlət büdcəsindən zəruri həcmdə dotasiya almasının vacibliyini önə çəkir.

Dövlət büdcəsindən istənilən 100 milyon manat məbləğində dotasiyanın istifadə istiqamətlərinə gəldikdə, həmin vəsaitlər bilavasitə yerli özünüidarəetmə orqanlarının "Bələdiyyələrin statusu haqqında" Qanunda nəzərdə tutulmuş səlahiyyətlərinin reallaşdırılmasına yönəldiləcək. Belə ki, müvafiq qanunvericiliyə əsasən bələdiyyə orqanları əhalinin sosial müdafiəsi və ərazinin iqtisadi inkişafı sahəsində proqramlar hazırlayıb həyata keçirməyə səlahiyyətlidirlər. Bunun üçün Bərdə bələdiyyəsi qarşıdakı 2006-2008-ci illər üzrə sosial-iqtisadi inkişaf proqramını da hazırlayıb. Sənədin əsas məqsədi bələdiyyə ərazisində yaşayan əhalinin, o cümlədən sosial müdafiəyə ehtiyacı olan vətəndaşların (çoxuşaqlı ailələrin, yetim uşaqların, valideynini itirmiş uşaqların, tək ahıl vətəndaşların, kasıb ailədən olan tələbələrin, işsizlərin, ailə başçısını itirmiş dul qadınların və s) sosial-iqtisadi cəhətdən dəstəklənməsini təmin etməkdir. Öz növbəsində, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər) regionlarda əhalinin məşğulluğunun artırılmasını və ölkədə əhalinin yoxsulluğunun azaldılmasını



nəzərdə tutur və məlum olduğu kimi, hazırda dövlət orqanları ilə yanaşı, yerli özünüidarəetmə orqanları da regionların sosial-iqtisadi inkişafı sahəsində səy göstərirlər. Bütün bunları əsas götürərək, Bərdə bələdiyyəsinin 2006-2008-ci illər üzrə sosial-iqtisadi inkişaf Proqramında nəzərdə tutulduğu, habelə bələdiyyənin 2006-cı il üzrə büdcə proqnozlarında əks etdirildiyi kimi dövlət büdcəsindən alınması gözlənilən 100 milyon manat vəsaitin yoxsul vətəndaşlara sosial yardımların verilməsinə, bələdiyyənin tabeçiliyində olan şəhərdaxili yolların çəkilişinə və təmirinə, həmçinin tamamilə sıradan çıxmış elektrik güclərinin təzələnməsinə və təmirinə yönəldilməsi nəzərdə tutulur *(büdcə proqnozları və sosial-iqtisadi inkişaf proqramı Arayışa əlavə olunur)*. Onu da nəzərinizə çatdırmağı vacib bilirəm ki, hazırda Bərdə bələdiyyəsinin ərazisində 57 min nəfər yaşayır. Onlardan 28 min nəfəri qadın, 27 min nəfəri kişi, o cümlədən 8900 nəfəri 16 yaşadək uşaqlardır. Rəsmi işsizlik statusu olan şəxslərin sayı 1170 nəfərdir. Ərazidə yaşayan pensiyaçıların sayı 7400 nəfər, o cümlədən 870 nəfər 70 yaşdan yuxarı tənha ahıl vətəndaşlardır. Ərazidə əhalinin 1250 nəfərini əlillər, o cümlədən 154 nəfərini Qarabağ müharibəsi və ölkənin konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlar, 74 nəfərini Böyük Vətən müharibəsi əlilləri, 107 nəfərini isə uşaqlıqdan əlillər təşkil edir. Ərazidə Qarabağ müharibəsinin iştirakçısı olan 1115 nəfər, Böyük Vətən müharibəsi iştirakçısı olan 162 nəfər yaşayır. Ərazidə məskunlaşan qaçqın və məcburi köçkünlərin sayı 17 min nəfərə yaxındır. Dövlətdən müxtəlif formada sosial müavinət və yardımlar, həmçinin pensiya alanların sayı 8300 nəfər, o cümlədən uşaq müavinətləri alanlar 2400 nəfər, pensiya alanlar 7400 nəfər, kommunal və nəqliyyat xidmətlərə görə aylıq müavinət alanlar 1160 nəfər təşkil edir. Öz növbəsində, bütün bu kateqoriyalar üzrə 2006-cı il ərzində bələdiyyə büdcəsindən 21,5 milyon manat məbləğində aylıq və birdəfəlik sosial müavinətlərin verilməsi nəzərdə tutulur. Məlumdur ki, bələdiyyələrə

dövlət büdcəsindən ayrılması nəzərdə tutulan dotasiyaların məbləği müəyyən olunarkən ən mühüm prinsip kimi həmin bələdiyyənin ərazisində yaşayan əhalinin sayı əsas götürülür. Şəhərin daimi sakinlərinin təxminən 30-35 faizi qədər qaçqın və məcburi köçkünün də ərazidə məskunlaşdığını nəzərə alsaq, Bərdə bələdiyyəsinin dövlətin maliyyə dəstəyinə kifayət qədər ehtiyac duyduğunu daha aşkar görmək olur.

Dövlət büdcəsindən ayrılan yerdə qalan vəsaitin proqram üzrə aşağıdakı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi planlaşdırılır:

- Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri - 38,5 milyon manat;

- Əhalinin enerji təchizatının yaxşılaşdırılması tədbirləri - 40 milyon manat.

Beləliklə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 32.2.2-ci maddəsində təsbit olunmuş yerli sosial-iqtisadi inkişaf proqramlarının yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirilməsi mümkün olmadıqda, bələdiyyələrin dövlət büdcəsindən dotasiya və subvensiya almaq hüququnu əsas götürərək, 2006-cı il dövlət büdcəsində Bərdə bələdiyyəsi üçün 100 milyon manat məbləğində vəsaitin nəzərdə tutulmasını diqqətdə saxlamanızı xahiş edirəm.

Qeyd etməyi vacib bilirəm ki, Bərdə bələdiyyəsi öz büdcəsində şəffalığın təmin olunması, yerli büdcə vəsaitlərinin səmərəli və təyinatı üzrə istifadəsi sahəsində ötən bir il ərzində genişmiqyaslı tədbirlər həyata keçirib. Belə ki, bələdiyyənin büdcə prosesini daha ciddi reqlamentləşdirmək məqsədilə 24.10.2004-cü il tarixdə "Bərdə bələdiyyəsinin büdcə prosesi haqqında Əsasnamə"si təsdiq olunub, 2005-ci ilin büdcə layihəsi 15 dekabr 2004-cü ildə ərazidə yaşayan 100-dən artıq sakinin, o cümlədən Bakı şəhərində nəşr olunan "Ekspert" jurnalının, "Aran" regional-humanitar Qeyri-Hökumət Təşkilatının, Bərdə rayon İcra Hakimiyyətinin təmsilçi-



lərinin iştirakı ilə keçirilən Büdcə Dinləməsində müzakirə edildikdən sonra bələdiyyə iclasında təsdiqlənib. 2005-ci ilin büdcə layihəsi "Bərdə" qəzetinin 01.01.2005-ci il tarixli, 2004-cü il büdcəsinin icrasının nəticələrinə dair Hesabat isə həmin qəzetin 15.04.2005-ci il tarixli sayında dərc olunub.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 35.2-ci və 11.14-cü maddələrinə müvafiq olaraq büdcə layihəsi ilə birlikdə müvafiq sənədləri sizə təqdim edirik.

Arayış Bərdə şəhər bələdiyyəsinin __ aprel 2005-ci il tarixli iclasında təsdiq olunub (Protokol №__)

**Qoşma:**

1. Bərdə bələdiyyəsinin 2005-ci büdcəsinin ilin gözlənilən nəticələri barədə arayış
2. 2004-ci ilin büdcəsinin faktiki nəticələri barədə arayış
3. 2006-cı büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;
4. 2004-ci ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;
5. "Bərdə şəhər Bələdiyyəsinin sosial-iqtisadi inkişaf Proqramı (2006-2008-ci illər)";
6. Bərdə şəhər bələdiyyəsinin 2005-ci il üçün büdcə layihəsinin dərc olunduğu "Bərdə" qəzetinin 01.01.2005-ci il tarixli sayı.
7. Bərdə şəhər bələdiyyəsinin 2004-cü il üçün büdcəsinin icrasının nəticələrinə dair hesabatın dərc olunduğu "Bərdə" qəzetinin 15.04.2005-ci il tarixli sayı.

***Bərdə bələdiyyəsinin***
***Sədri Yusif Nərimanov***

***27 aprel 2005-ci il***

# Dövlət və bələdiyyə büdcələri arasında qarşılıqlı münasibətlərin tənzimlənməsinə dair qanunvericilikdən

## Ç I X A R I Ş

**Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanununun bəzi müddəaları**

### II FƏSIL

### Dövlət büdcəsi

**Maddə 11. Dövlət büdcəsi layihəsinin tərtibi prosesi və büdcə təqvimi**

... 11.14. Dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək aşağıdakı sənədləri və məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər:

* 11.14.1. cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

* 11.14.2. növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;

* 11.14.3. ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;

* 11.14.4. müvafiq icra hakimiyyəti orqanının sorğusuna görə digər materiallar.

**Maddə 26. Dövlət büdcəsi ilə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr arasında qarşılıqlı əlaqə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə dövlət büdcəsinin qarşılıqlı əlaqəsi gəlir mənbələrinin, gəlirlərin dotasiya, subvensiya və büdcə ssudaları şəklində bölüşdürülməsi vasitəsilə həyata keçirilir.**



**Maddə 27. Dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondları arasında qarşılıqlı əlaqə**

... 27.3. Yerli büdcəyə daxil edilən layihələrin maliyyələşdirilməsi üçün büdcədənkənar dövlət fondlarından ayrılan vəsait müvafiq yerli büdcə vasitəsilə istifadə olunur.

### IV FƏSIL

### Yerli büdcələrin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət

**Maddə 32. Bələdiyyələr ilə dövlət hakimiyyəti orqanları arasında büdcə münasibətləri**

32.1. Bələdiyyələr yerli büdcələrin tərtibində, təsdiqində və icrasında müstəqildirlər.

32.2. Dövlətin yerli büdcələrə maliyyə dəstəyi aşağıdakı yollarla həyata keçirilir:

* 32.2.1. investisiya mühitini yaxşılaşdırmaqla və səmərəli iqtisadi siyasəti həyata keçirməklə istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq;

* 32.2.2. yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq.

32.3. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

32.4. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

32.6. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət bələdiyyələrinin xərc öhdəliyinə görə məsuliyyət daşımır.

**Maddə 34. Yerli büdcələrin xərcləri**

...34.2. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

34.3. Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək olmamalıdır.

34.4. Dotasiyanın yuxarı həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi və digər amillər nəzərə alına bilər.

34.5. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirlə göstərilir.

**Maddə 35. Yerli büdcənin tərtibi**

35.1. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır.

35.2. Dövlət büdcəsindən dotasiya almaq nəzərdə tutulduqda yerli büdcənin layihəsi bu qanunun 11.14-cü maddəsi ilə müəyyən edilən sənədlər və məlumatla birlikdə may ayının 1-dək müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 iyul 2002-ci il***
***N 358 - IIQ***
*(03 dekabr 2004-cü il tarixli dəyişikliklərlə)*



# MÜNDƏRİCAT


Bələdiyyədə büdcə prosesinin təşkili . . . . . . . . . . . . 3

Bələdiyyədə büdcə quruculuğu və büdcə prosesi haqqında Model Əsasnamə . . . . . . . . . . 11

Yerli büdcə layihəsinin bələdiyyə iclasına təqdim olunması . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34

Yerli büdcə paketi . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

Yerli büdcə layihəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

Köməkçi sənədlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42

Bələdiyyənin növbəti il üzrə büdcə layihəsinə dair izahat . . . . . . . . . . . . . . . . . . . . . . . 43

Yerli vergilər üzrə güzəşt siyahısı . . . . . . . . . . . . . . . 47

Ehtiyac qruplarının kataloqu . . . . . . . . . . . . . . . . . . 48

Sosial yardım siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . 49

Müqayisəli təhlil cədvəli . . . . . . . . . . . . . . . . . . . . . 50

Dövlət büdcəsindən maliyyə yardımının alınması üçün arayış . . . . . . . . . . . . . . . 56

**Redaktor:** *Rövşən AĞAYEV*
**Texniki redaktor:** *Tural MƏMMƏDOV*
**Korrektor:** *Sona MƏMMƏDOVA*

**Yığılmağa verilib 10.03.2005**
**Çapa hazırlanıb 10.04.2005**
**Format 60x90 1/8**
**Həcmi 8,0 şərti ç.v.**
**Kağız 100 qr. Ofset**
**Tiraj 1500**

**Kitab "CBS polygraphic production"**
**mətbəəsində çap olunub.**